## QEYD VƏ ŞƏRHLƏR

**Sirk “Modern”**

səh. 621. “Güləşməyin axırıncı günü”: qəzetdə “axırıncı” sözü iki dəfə getmişdir.

**Cümə günkü müxtəlif xəbərlər**

səh. 629. “Strumçe”: Şimali Makedoniyanın Strumitsa şəhəri nəzərdə tutulur.

“Tsaribrod”: Şimali Makedoniyanın cənub-şərqində, Bolqarıstan sərhədi yaxınlığında yerləşən indiki Dimitrovqrad şəhəri nəzərdə tutulur.

“admiral Tanaka”: qəzetdə soyadı təhrif edilmişdir.

“Vahba paşa”: qəzetdə “Vahab paşa” getmişdir.

**Dağıstanda**

səh. 630. “Rukel”: Dağıstanın Dərbənd rayonunun kəndi.

“Kemax”: Dağıstanın Dərbənd rayonunda kənd olmuşdur; hal-hazırda mövcud deyil.

**Vükəla Şurasında**

səh. 631. “Təsadüfi mədaxil 199.999.000 manatla azaldılsın.”: güman ki, “azaldılsın” yerinə “artırılsın” olmalı idi.

**Milli müzəmiz**

səh. 633. *“Ze mancaniğe-fələk əbre-fitnə mibarəd / To əbləhane gerefti miyane-şişe həsar”*: “Fələyin mancanağından fitnə buludu yağır, sən axmaqcasına şüşə arasında hasar tutmusan.” (farsca)

*“Gər negəhdare-mən anəst ke mən midanəm / Şişera dər bağəle səng negəh midarəd”*: “Əgər məni qoruyan mənim tanıdığımdırsa, şüşəni daşın qoltuğunda da qoruyar.” (farsca)

Farsca beytləri Akademik Teymur Kərimli oxumuş və tərcümə etmişdir.

Akademik Teymur Kərimlinin qeydi:

“Birinci beyt Firdovsiyə deyil, Qacarla birgə gəlmiş saray şairinə məxsusdur və əsli belədir:

*Ze mancaniğe-fələk senge-fitnə mibarəd*
*To əbləhane gerefti miyane-şişe qərar*

Yəni:

Fələyin mancanağından fitnə daşı yağır
Sən isə axmaqcasına şüşənin arasında dayanmısan.”

səh. 633. “Şah Abbas məscidinin səhnində”: qəzetdə “səhnində” yerinə “səhnəsində” getmişdir.

**Ehtikar ilə mübarizə**

səh. 637. “beş qədər artırıla biləcəkdir”: güman ki, “beş qədər” yerinə “bəs qədər” olmalı idi.

**Bakı xəbərləri**

səh. 638. “Telefonnı küçə”: Bakıda, indiki 28 May küçəsi.

“Malakanski soqaq”: Bakıda, indiki Xaqani küçəsi.

**Cəmiyyəti-Xeyriyyədə**

səh. 641. “Həsənqulı”: Türkmənistanın Balkan vilayətində, Xəzər dənizi sahilində şəhər; indiki Əsənqulı şəhəri.

**Gürcüstan xəbərləri**

səh. 644. “Yevanqulov və başqaları”: qəzetdə belə getmişdir: “Yevanqulov ilə və başqaları”.





# ADLAR GÖSTƏRİCİSİ

Abbas: Ermənistan ərazisində azərbaycanlıların özünümüdafiə dəstələrinin təşkilində iştirak etmişdir. 166
Abbas Bayram oğlu. 278
Abbas Haşım oğlu: Bakıdakı Qars qaçqınlarından. 220
Abbas Mirzə (1789-1833): Qacar taxtının vəliəhdi; Fətəli şah Qacarın oğlu. 401
Abbas Mirzə Fərmanfərma (Salari-ləşkər; 1890-1935): İranın siyasi xadimi; Ədliyyə naziri olmuşdur. 127, 465
Abbasəli Rza oğlu: Balaxanada fəhlə olmuşdur. 47
Abbasqulu: fəhlə hərəkatının fəal iştirakçısı. 640
Abbasquluzadə, Həsən: “Müsavat” partiyasının Əhmədli kənd şöbəsinin katibi olmuşdur. 48
Abbasov, Əhməd: Qazax qubernatorunun köməkçisi. 644
Abbaszadə, Abbas (Mirzə Abbas; yaxud A. Mollazadə; 1870-1920): Azərbaycanlı pedaqoq və folklorşünas. Azərbaycan məktəbləri üçün dərsliklər qələmə almışdır. Bəzi əsərlərində “A. Mollazadə” imzasından istifadə etmişdir. Gəncə Müsəlman Xeyriyyə Cəmiyyətinin və Gəncə Türk Müəllimləri İttifaqının üzvü olmuşdur. 44, 80, 109, 222, 223, 224, 227
Abbaszadə, Mirzə Abbas: bax. Abbaszadə, Abbas.
Abbaszadə, Mirzə Əhməd: Bakı sakini. 535, 560, 589
Abbaszadə, Yusif: Bakı sakini. 535, 560, 589
Abdulla (Məşhədi Abdulla): çayçı. 611
Abdulla əl-Məazi: bax. Əl-Məazi, Abdulla.
Abdulla Rəhim oğlu (Hacı Abdulla): Bakı sakini. 161
Abdullayev, Asəf: Bakı sakini. 221
Abdullayev, Ələsgər (yaxud Şəkili Ələsgər; 1866-1929): Azərbaycan xanəndəsi. 257, 366
Abdullazadə, Həsən Səbri: Azərbaycan aktyoru. 167, 196
Abuzər Almas oğlu: Könüllü Təşkilatının üzvü. 193
Abuzərzadə, İsgəndər (Hacı İsgəndər): “Müsavat” üzvü; “Müsavat”ın 1919-cu il dekabr qurultayının Buzovnadan nümayəndəsi. 640
Adamov, N.: Bakıda kantoru olmuşdur. 253, 342, 368
Adamov, S.: Bakıda kantoru olmuşdur. 253, 342, 368
Adil bəy (1865-1932): Osmanlı dövlətinin siyasi xadimi. İki dəfə (1909, 1919) Daxili işlər naziri olmuşdur. 44
Ağa Əli (? - 1919): İran Demokrat firqəsinin liderlərindən. 465
Ağa Rzaqulu oğlu: “Tula” gəmisində sükançı olmuşdur. 162
Ağa Zeynalabdin oğlu (Kərbəlayı Ağa Molla Zeynalabdin oğlu). 106
Ağababa Xəlifə oğlu (Molla Ağababa Hacı Xəlifə oğlu): Quba qəzasının Ərəb Həmyə kəndinin sakini. 639
Ağababa Rza oğlu: Bakıda neft mədənində fəhlə olmuşdur. 557
Ağabala Qulam oğlu. 614
Ağabəyov, Rza bəy (1894-1961): Göyçayda anadan olmuş, Moskvada hüquq təhsili almışdır. Göyçaydan Azərbaycan Cümhuriyyəti Parlamentinə seçilmiş, “Müsavat” fraksiyasının üzvü olmuşdur. 114, 115, 174, 175, 176, 177, 350, 377, 625
Ağacanov, Cəbrayıl: Bakı sakini. 221
Ağaəli Gülmirzə oğlu. 614
Ağaəliyev, İsmayıl: Bakı sakini. 221

Ağahacızadə, Hüseyn: Bakı sakini; "Müsavat" üzvü. 47
Ağakərim Məhəmmədəli oğlu (Məşhədi Ağakərim Hacı Məhəmmədəli oğlu): Şamaxı şəhəri sakini. 448
Ağakərim Səfdər oğlu (Kərbəlayı Səfdər oğlu): Lahıc sakini. 136
Ağalarov, Böyükkişi. 30
Ağamalıoğlu, Səməd ağa (yaxud Ağamalızadə; Ağamalıyev; Ağamalov; 1867-1930): Azərbaycanın və Sovet İttifaqının dövlət xadimi. Zaqafqaziya Seyminin və Azərbaycan Milli Şurasının üzvü olmuş, Azərbaycan Cümhuriyyəti Parlamentində Sosialistlər fraksiyasını təmsil etmişdir. Sovet dövründə Azərbaycanın Kənd Təsərrüfatı xalq komissarı vəzifəsini tutmuş, Azərbaycan Sovet Sosialist Repsublikası Mərkəzi İcraiyyə Komitəsinin sədri, Zaqafqaziya Sovet Federativ Sosialist Repsublikası Mərkəzi İcraiyyə Komitəsinin sədrlərindən biri olmuşdur. 7, 10, 34, 35, 37, 89, 175, 203, 204, 378, 403, 404
Ağamalızadə, Məhəmmədəli: Bakı Politexnik məktəbi Türk Mütəəllimləri Təşkilatının xəzinədarı. 219
Ağaməhəmməd İlyas oğlu: Balaxanada fəhlə olmuşdur. 47
Ağaoğlu, Əhməd bəy (1869-1939): Azərbaycanın və Türkiyənin gökəmli ictimai-siyasi xadimi; hüquqşünas, şərqşünas, yazıçı-publisist. Türkçülük hərəkatının ideoloqlarından biri olmuşdur. 330, 331
Ağaoğlu, Məhəmməd bəy Həsən bəy oğlu (1895-1949): İrəvanda doğulmuş, Moskvada oxumuş, Azərbaycanda dövlət qulluğunda müxtəlif vəzifələrdə işləmişdir. Cümhuriyyətin süqutundan sonra xaricə getmiş, təhsilini Berlin və Vyanada davam etdirmişdir. Türkiyə və ABŞ universitetlərində işləmişdir. 440, 441, 442
Ağasıbəyov, Ağası bəy: Gəncə Bələdiyyəsi nümayəndəsi. 361
Ağayev, Cəmil. 30
Ağayev, Əhməd: Axalkalakidə qaçqınların müvəkkili olmuşdur. 106
Ağayev, Həsən bəy (1875-1920): Azərbaycanın görkəmli dövlət xadimi. Moskva Universitetinin Tibb fakültəsini bitirmişdir. Azərbaycan Milli Şurasının 28 may 1918-ci il tarixli iclası (Azərbaycanın müstəqilliyinin elan edildiyi iclas) Həsən bəy Ağayevin sədrliyi ilə keçirilmişdir. Azərbaycan Parlamenti sədrinin birinci müavini olmuş və Parlamentin sədri Topçubaşov Bakıda olmadığından, Həsən bəy faktiki olaraq Parlamentə rəhbərlik etmişdir. Tiflisdə erməni terroristi tərəfindən qətlə yetirilmişdir. 6, 87, 126, 173, 202, 349, 440, 441, 442, 624
Ağayev, Həsənağa: Bakı sakini. 221
Ağayev, Məhəmməd: bax. Ağaoğlu, Məhəmməd bəy Həsən bəy oğlu.
Ağayev, Vəli: Biləsuvar uçastokunun pristav müavini olmuşdur. 586
Ağayeva, Xədicə xanım Sadıq bəy qızı (1885-1958): Müəllimə; Ufa türklərindən idi. Azərbaycan Parlamenti sədrinin müavini Həsən bəy Ağayevin həyat yoldaşı. 157
Ağazadə, Ağabala: Bakı Politexnik məktəbi Türk Mütəəllimləri Təşkilatı İcraiyyə Komitəsinin üzvü olmuşdur. 219
Ağazadə, Fərhad Məşhədi Rəhim oğlu (1880-1931): Azərbaycanın görkəmli pedaqoqu və publisisti. Şuşada anadan olmuş, Qori Seminariyasını bitirmiş, Azərbaycanın müxtəlif yerlərində müəllim işləmişdir. Məktəblilər üçün "İkinci il" dərsliyinin müəlliflərindəndir. Dövri mətbuatda çıxış etmiş, həmçinin "Azərbaycan" qəzetinin ən fəal müəlliflərindən olmuşdur. 20, 67, 132, 157, 224, 243, 299, 333, 387, 525, 547, 634
Ağazadə, Həsənağa: "Müsavat"ın Balaxana təşkilatının üzvü. 558
Ağazadə, Novruz: "Müsavat"ın Şura üzvü. 640
Axıcanov, Müseyib bəy (1892-1920): Azərbaycanın dövlət xadimi. Kiyevdə Müqəddəs Vladimir Universitetinin Hüquq fakültəsini bitirmişdir. Bakı qubernatorunun müavini, Bakı qubernatoru, Azərbaycan Parlamentinin üzvü olmuşdur. Bolşeviklər tərəfindən güllələnmişdir. 349
Axıskalı: "Azərbaycan" qəzetində imza; çox güman ki, Əhməd Cövdət Pepinova məxsusdur.
Axund Molla Dadaş: Dağıstanlı ruhani. 95
Axundov: Bakı Universitetinin Tibb fakültəsinin tələbəsi olmuşdur. 637
Axundov: Bakıda pristav müavini olmuşdur. 503
Axundov, Ağakərim: Bakı sakini. 107
Axundov, Bəhram bəy Məşhədi Mirzə Cəfərqulu bəy oğlu (1872-1932): Azərbaycanın ictimai-siyasi xadimi; həkim. Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur. 350, 376, 529
Axundov, Əliəsgər bəy: Şəki Bələdiyyəsinin nümayəndəsi. 361
Axundov, Məhəmməd Sadıq: bax. Aran, Məhəmməd Sadıq.
Axundov, Mirzə Fətəli: bax. Axundzadə, Mirzə Fətəli.
Axundov, Murtuza (1877-1920): Azərbaycan Cümhuriyyətinin siyasi xadimi. Parlamentin üzvü olmuşdur. 117
Axundzadə, Musa: neft sənayeçisi Səlimovun Binəqədidəki mədənlərində müsəlman fəhlələri təşkilatının sədri olmuşdur. 640
Axundov, Səfdər: Bakıdakı dərbəndlilərdən. 479
Axundov, Şirin Məşhədi Hüseyn oğlu (1878-1927): Azərbaycanlı tarzən. 257, 366
Axundov, Vahab: Lahıc sakini. 610
Axundzadə, Ağasadıq: "Müsavat"ın Hacıqabul şöbəsinin üzvü. 529
Axundzadə, Cavad: bax. Əhməd Cavad.
Axundzadə, Əbdülxalıq: Şeyxülislamlıq İdarəsinin üzvü olmuşdur. 346
Axundzadə, Ətaulla: "Müsavat"ın Astara şöbəsinin katibi. 531
Axundzadə, Hacı Mirzə Səlim Mirzə İsmayıl Qasir oğlu (1872-1930): Azərbaycanın ictimai-siyasi xadimi. Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur. Aprel işğalından sonra İrana mühacirətə getmişdir. 281
Axundzadə, Məhəmmədhənifə: Azərbaycan Şeyxülislamlıq İdarəsində arxiv işçisi olmuşdur. 346
Axundzadə, Mirzə Fətəli (1812-1878): Azərbaycan dramaturgiyasının banisi; şair və filosof. 241
Axundzadə, Sadıq: bax. Aran, Məhəmməd Sadıq.
Axundzadə, Şeyx Qəni: Bakı sakini. 106
Akçura, Yusif: bax. Akçuralı, Yusif.
Akçuralı, Yusif (1876-1935): Tatar əsilli yazıçı, publisist və siyasətçi; türk milliyyətçiliyinin ideoloqlarından biri olmuşdur. Simbirskdə (indiki Ulyanovsk) anadan olan Akçuralı Türkiyədə təhsil almışdır. Kazanda "Məhəmmədiyyə" mədrəsəsində dərs demiş, Rusiya müsəlmanlarının siyasi partiyası "İttifaqi-müslimin"in təşkilatçılarından və rəhbərlərindən biri olmuşdur. Yeni Türkiyənin qurulmasında yaxından iştirak etmiş, Türkiyə Böyük Millət Məclisinin deputatı olmuş, Türk Tarix Qurumu elmi cəmiyyətinin qurucuları arasında yer almışdır. 267
Akop: tarzən. 257
Akton (Lord Akton): bax. Lion-Dalberq-Akton, Riçard.
Akuşinski, Əli Hacı (1847-1930): XX əsrin əvvəllərində Dağıstanın ictimai-siyasi xadimi və dini lideri olmuşdur. 211, 214, 602
Akzianit, Etninka: kino aktrisası. 537
Albert [Albert I; 1875-1934]: 1909-1934-cü illərdə Belçika kralı. 13
Albriçşi, Alberiko [Alberico Albricci; 1864-1936]: İtaliyanın hərbi xadimi; general. 431
Aleksandr II (1818-1881): Rusiya imperatoru. 1855-1881-ci illərdə hakimiyyətdə olmuşdur. 148, 521

Alxasov, Kərim bəy: mühəndis; Bakı və Ətrafının Müsəlman Ziyalıları İttifaqının üzvü olmuşdur. 639

Allenbi, Edmund [Edmund Allenby; 1861-1936]: ingilis feldmarşalı. Birinci Dünya müharibəsindən sonra İngiltərənin Yaxın Şərqdə ali komissarı [High Commissioner] olmuşdur. 321, 544

Alfonso XIII [Alfonso XIII; 1886-1941]: İspaniya kralı. Özündən əvvəlki İspaniya kralı, atası XII Alfonsonun vəfatından sonra doğulduğundan, anadan olan kimi tac geymişdir. 1931-ci ildə hakimiyyətdən devrilmiş, həyatının son illərini mühacirətdə keçirmişdir. 516, 575

Almas Əlixas oğlu: Bakı sakini. 448

Almeyda, Antoniu Joze de [Antonio Jose de Almeida; 1866-1929]: Portuqaliyanın siyasi xadimi; 1919-1923-cü illərdə prezident olmuşdur. 380

Alşibaya, Qriqol: Gürcüstanın Azərbaycandakı siyasi nümayəndəsi olmuşdur. 361, 494, 497, 583

Altunbayev, Süleyman: "Müsavat" üzvü; "Müsavat"ın 1919-cu il dekabr qurultayının Bibiheybətdən nümayəndəsi. 640

Amiloxvari, N.: Gürcüstan Hərbi nazirinin adyutantı olmuşdur. 76

Amiraqo, Pavel İvanoviç (yaxud Pavel İvanoviç Amiraqov; 1879-1945): Opera və operetta artisti, tenor. Tiflisdə anadan olmuş, Tiflis, Moskva, Peterburq, Xarkov, Daşkənd, Varşava və digər şəhərlərin opera teatrlarında işləmişdir. Bakıda Mailov Teatrı, Rus Opera Teatrı və Bakı Dövlət Opera və Balet Teatrında rəhbər vəzifələrdə işləmişdir. 174

Amosov, Aleksey Mitrofanoviç (1873-1946): riyaziyyatçı alim; professor; pedaqoq. Bakıda orta və ali məktəblərdə dərs demişdir. Bakı Neft Mədənçiləri Qurultayı Şurasının Məktəblər Komissiyasının üzvü olmuşdur. 301

Anaplinski (Anaplı), Əbülhəsən (1894-1921): Teatr aktyoru. Bir sıra teatr truppalarında, o cümlədən Hacıbəyov qardaşlarının teatr dəstəsində çıxış etmişdir. Əsasən komik rollar oynamışdır. Qarabağda qastrol səfərində olarkən ermənilər tərəfindən xaincəsinə qətl edilmişdir. 257

Anaşkin, İvan İvanoviç (1880-1938): Tambov quberniyasında anadan olmuş, Bakıda neft mədənlərində işləmişdir. Fəhlə hərəkatının fəal iştirakçısı olmuşdur. 103

Andronikov: elektrik mühəndisi; Gürcüstanda teleqraf müfəttişi olmuşdur. 444

Anoto, Qabriel [Gabriel Hanotaux; 1853-1944]: Fransız diplomatı; 1896-1898-ci illərdə Xarici İşlər naziri olmuşdur. 409, 426

Antonov: Gəncə nahiyə məhkəməsinin üzvü olmuşdur. 102

Apakidze: Gürcüstan Xarici İşlər Nazirliyinin direktoru. 195

Aran, Məhəmməd Sadıq (Axundzadə; 1895-1976): Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü, jurnalist. Cümhuriyyətin süqutundan sonra fəaliyyətini mühacirətdə davam etdirmişdir. 75, 76, 136

Arxangelski: rus publisisti. 345

Arximed (Arximedes; e. ə. 287-212): qədim yunan alimi. 347

Arifə xatun: Bakı sakini. 479

Arutunyan, Arşak: Azərbaycan Cümhuriyyəti Parlamentində Erməni fraksiyasının üzvü. 87

Askvit, Herbert Henri [Herbert Henry Asquith; 1852-1928]: Britaniyanın dövlət xadimi. 1908-1926-cı illərdə Britaniya Liberal Partiyasına başçılıq etmiş, 1892-1895-ci illərdə Daxili İşlər naziri, 1905-1908-ci illərdə Maliyyə naziri, 1908-1916-cı illərdə Baş nazir olmuşdur. 93

Aslanov, Əlinağı: Bakı sakini. 221

Aslanov, Əmir bəy (1892-1942): Azərbaycanlı həkim. 25, 108

Aslanov, Teymur: Bakı Müsəlman Tələbələr İttifaqının sədri. 467

Aşurbəyli, İsa bəy (1878-1938): Azərbaycanın ictimai-siyasi xadimi və xeyriyyəçi-





si. Bakı Şəhər Dumasının və "Nicat" cəmiyyətinin üzvü olmuşdur. Birinci Dünya müharibəsində əsir düşən türk əsgərlərinə yardım edən komitənin işində fəal iştirak etmişdir. Mətbuatda "Həqqi" təxəllüsü ilə çıxış etmişdir. 1938-ci ildə güllələnmişdir. 364

Aşurov, Ağa (1880-1936): Azərbaycanın dövlət xadimi. Bakıda anadan olmuşdur. Azərbaycan Cümhuriyyəti dövründə Parlamentin üzvü olmuş, Ticarət və Sənaye naziri, Ərzaq naziri, Poçt və Teleqraf naziri kimi vəzifələrdə işləmişdir. Cümhuriyyətin süqutundan sonra Rostova köçmüş, orada vəfat etmişdir. 177

Atamanov: Ermənistanın siyasi nümayəndəsi əvəzi. 436

Atatürk, Mustafa Kamal (1881-1938): Türkiyənin dövlət xadimi. Türk Qurtuluş Savaşının Baş komandanı. Türkiyə Cümhuriyyətinin banisi və ilk prezidenti. 44, 62, 101, 267, 268, 269, 291, 292, 293, 323, 355, 356, 369, 370, 381, 384, 397, 431

Atayans, İshak Avetisoviç: Bakıda həkim olmuşdur. 25, 108, 507, 563, 618

Atayev: Müsavatçı gənc. 364

Ayn. Ayn.: bax. Abbaszadə, Abbas (Mirzə Abbas).

Ayronsayd, Edmun [Edmund Ironside; 1880-1959]: Britaniyanın hərbi xadimi; feldmarşal. 1919-cu ildə Arxangelskdəki Antanta qoşunlarının Baş komandanı olmuşdur. 38

Azəri, Əhməd: İranın Gilan və Təvaliş general-qubernatoru. 545

Baba oğlu Həbib: bax. Babazadə, Həbib.

Baba Səfərəli oğlu: Quba qəzasının Ərəb Həmyə kəndinin sakini. 639

Babalyan, Artaşes (1886-1959): Ermənistanın ictimai-siyasi xadimi; həkim. Ermənistan Parlamentinin üzvü, Sosial Müdafiə naziri olmuşdur. Daşnaksutyun partiyasının üzvü idi. 166

Babarza Məlikrza oğlu: Bakı sakini. 448

Babayev, Ağamoğlan: Bakı sakini. 221

Babayev, Əliheydər: Bakı sakini. 221

Babayev, Əliheydər Ağadadaş oğlu (Məşhədi Ağadadaş oğlu; 1890 - ?): mühəndis-texnoloq. Xarkov Texnologiya İnstitutunu bitirmişdir. Müxtəlif dövlət qulluqlarında işləmiş, Bakı Politexnik Məktəbinin müəllimi olmuşdur. 424, 529, 559

Babayev, Əsədulla: Gəncədə və Ağ şəhərdə (Bakı) poçt-teleqraf bürosunda işləmişdir. 55

Babayev, Qulam: Azərbaycan Ordusunun əsgəri. 445

Babazadə: Bakı Politexnik məktəbinin müəllimi olmuşdur. 161

Babazadə, Baba: Bakı Sənaye məktəbinin müəllimi olmuşdur. 246

Babazadə, Əbülfəzl: Müsəlman Tələbələri İttifaqının üzvü; Bakı Politexnik məktəbi Türk Mütəallimləri Təşkilatı İcraiyyə Komitəsi sədrinin müavini olmuşdur. 219

Babazadə, Həbib (1892 - ?): Ukraynada təhsil alan azərbaycanlı tələbələrdən. Azərbaycan Cümhuriyyəti Parlamentinin kargüzarı olmuşdur. 418, 501

Babazadə, Şirmirzə: "Müsavat" partiyasının Balaxanı şöbəsinin katibi. 558

Badolyo, Pyetro [Pietro Badoglio; 1871-1956]: İtaliyanın hərbi xadimi, marşal. 1943-1944-cü illərdə Baş nazir olmuşdur. 431

Bağırzadə, Hilal: "Müsavat"ın Şura üzvü. 364, 505, 558

Bağırzadə, Məhəmmədtağı: aktyor. 588, 589

Bahadırlı, Sadıq: "Müsavat" üzvü; "Müsavat"ın 1919-cu il dekabr qurultayının Əmirhacıyandan nümayəndəsi. 640

Bahadurov, Rəhim: Bakıda polis məmuru olmuşdur. 448

Baxşızadə, Novruzəli: "Müsavat"ın Balaxana təşkilatının üzvü. 558

Baxtyarov. 574, 592

Bakıxanov, Abbasqulu Ağa Mirzə Məhəmməd xan oğlu (1794-1847):

Azərbaycan alimi və şairi. "Gülüstani-İrəm" əsəri ilə Azərbaycan tarixşünaslığının əsasını qoymuşdur. 243

Baqi (1526-1600): XVI əsr türk şairi. Əsl adı Mahmud Əbdülbaqi olub, "Baqi" təxəllüsünü işlətmişdir. "Sultanüşşüəra", yəni "şairlər sultanı" kimi tanınmışdır. 27

Baqiyev, Bilal: Bakı sakini. 476

Balabas, Aleksey İsakoviç (1890-1960): Kuban kazakı; Ukraynanın hərbi və siyasi xadimi. 623

Balabəy Zülfəli oğlu: Bakıda çörəkçi olmuşdur. 448

Balahəsənzadə, Heydər. 29

Balaxoviç, İosif Nikodimoviç (1894-1923): Rusiyanın hərbi xadimi; ağqvardiyaçı general-mayor. 11, 27

Balaxoviç, Stanislav Nikodimoviç (1883-1940): Rusiyanın hərbi xadimi; ağqvardiyaçı general-mayor. 1920-ci ildə Belarusda Müvəqqəti hökumətin başçısı olmuşdur. 11, 27

Balfur, Artur [Arthur Balfour; 1848-1930]: Britaniyanın dövlət xadimi. 1902-1905-ci illərdə Baş Nazir, 1916-1919-cu illərdə Xarici İşlər naziri olmuşdur. 400, 466, 544

Bammatov, Heydər (yaxud Heydər Bammat; 1889-1965): Dağıstanın siyasi xadimi. Sankt-Peterburq Universitetinin Hüquq fakültəsində oxumuşdur. Dağlılar Respublikasının Xarici İşlər naziri olmuş, 1921-ci ildə mühacirətə getmişdir. 379

Baranovski, Henrix: Qaradonlu və Biləsuvarda poçt-teleqraf bürosunda işləmişdir. 55

Baratov, Nikolay Nikolayeviç (1865-1932): Rusiyanın hərbi xadimi; general. Birinci Dünya müharibəsi dövründə İranda xidmət edən Birinci Qafqaz süvari korpusunun komandiri olmuşdur. Oktyabr inqilabından sonra ağqvardiyaçılar hərəkatına qoşulmuş, Gürcüstan hökuməti yanında Denikinin nümayəndəsi olmuşdur. 1919-cu ildə Tiflisdə sui-qəsd cəhdindən ağır yaralı qurtulmuşdur. 1920-ci ildə mühacirətə getmişdir. 384, 428, 429, 588

Barbüs, Henri [Henri Barbusse; 1873-1935]: fransız yazıçısı. 41

Barkli, Kolvill [Colville Barclay; 1869-1929]: Britaniyalı diplomat; 1919-1924-cü illərdə İsveçdə səfir olmuşdur. 185

Barton, Ceyms Levi [James Levi Barton; 1855-1936]: Amerika missioneri; Yaxın Şərqə yardım üzrə Amerika Komitəsinin sədri olmuşdur. 600, 601

Baruçev, Reznik. 603

Bayram Əli oğlu: Nuxa qəzasının Həşəmköy kəndinin sakini. 645

Bayram Həzrətqulu oğlu: Hacıqabul sakini. 363

Bayraməlibəyli, Məryəm xanım: bax. Bayraməlibəyova, Məryəm xanım.

Bayraməlibəyova, Məryəm xanım (1898-1987): pedaqoq, xeyriyyəçi. Teymur bəy Bayraməlibəyovun qızı, Cavad bəy Məlik-Yeqanovun həyat yoldaşı idi. 530

Bekzadyan, Tiqran Arutyunoviç (yaxud Artyomoviç; 1877-1942): Şuşada anadan olmuş, 1917-ci il inqilabından əvvəl Bakıda neft sənayesi sahəsində işləmişdir. Cümhuriyyət dövründə Ermənistanın Azərbaycandakı siyasi nümayəndəsi olmuşdur. Fransaya mühacirətə getmişdir. 335

Belinski: Bakıdakı rus icmasının nümayəndəsi. 361

Belyayev: Rusiyanın hərbi xadimi; Könüllü ordu polkovniki. 384, 428

Belyayev, M. V.: professor, Bakıda işləmişdir. 241

Berqold: Almaniyanın hərbi xadimi. 207

Bermondt-Avalov, Pavel Rafailoviç (1877-1973): Rusiyanın hərbi xadimi; general-mayor. Ağqvardiyaçılar hərəkatının Pribaltikadakı nümayəndəsi idi. 146, 351, 369, 380, 460, 542

Bermont (polkovnik Bermont): bax. Bermondt-Avalov, Pavel Rafailoviç.





Bernar, Klod [Claude Bernard; 1813-1878]: Fransiz həkimi, fizioloqu. 347, 369

Beyer: ABŞ senatoru. 119

Bədəlbəyov, B.: Qarabağ general-qubernatorluğunun məmuru. 445

Bədəlbəyov, Müseyib: Müsaatçı gənc. 364

Bədəlzadə, Soltan Əbdüləli oğlu (Məşhədi Soltan Məşhədi Əbdüləli oğlu): Azərbaycan Şeyxülislamlıq İdarəsinin dəftərdarı (registratoru) olmuşdur. 346

Bəhaülmülk: bax. Əlirza xan Qaragözlü.

Bəhram Qurban oğlu (Molla Bəhram): "Müsavat"ın Şıxakəran şöbəsinin katibi. 531

Bəhram Nəcəfəli oğlu: "Tula" gəmisində sükançı olmuşdur. 162

Bəhramov. 583

Bəkirov, Osman Zəki (1896-1938): Krım tatarlarından; repressiyaya məruz qalmışdır. 99

Bərbərzadə, Ömər Ziya: Batumdakı Milli Müsəlman Şurasının katibi. 586, 609

Bıç, Luka Lavrentyeviç (1870-1945): Kuban kazaklarının siyasi və ictimai xadimi. Hüquq təhsili almışdır. Bakıda işləyərkən Bakı Şəhər Dumasına üzv seçilmiş, 1912-1917-ci illər arasında Bakı Şəhər İdarəsinin rəisi olmuşdur. 1917-ci ilin Fevral inqilabından sonra Kubana qayıtmış, Kuban Hökumətinin sədri seçilmişdir. Kuban heyətinin başçısı olaraq Paris Sülh Konfransında iştirak etmiş, Kuban Xalq Respublikası süqut etdikdən sonra mühacirətdə qalmışdır. 235, 379, 380, 511, 512

Bibiqulu Məhəmmədcəfər oğlu: Künövşə kəndinin (Siyəzən) katibi. 338

Bilqeyis: Dərbənd qaçqınlarından. 107

Birinaum, Otto: Alman professoru. 182

Bismark, Otto fon [Otto von Bismarck; 1815-1898]: Almaniyanın dövlət xadimi. Almaniyanın birləşdirilməsini həyata keçirmiş, Alman imperiyasının birinci kansleri olmuşdur. 379

Bissolati, Leonida [Leonida Bissolatı; 1857-1920]: İtaliyanın siyasi xadimi; sosialist. 629

Blajevski, V. F.: Azərbaycan Cümhuriyyəti Poçt və Teleqraf Nazirliyi dəftərxanasının müdiri olmuşdur. 55, 595

Blerio, Lui [Louis Bleriot; 1872-1936]: Fransız ixtiraçısı. "Blerio aeronotik" [Bleriot Aeronautique] adlı təyyarəqayırma şirkətinin əsasını qoymuşdur. 380

Boqatıryov, Aleksandr: pəhləvan. 1, 49, 53, 83, 113, 144, 171, 201, 229, 285

Boqayevski, Afrikan Petroviç (1873-1934): Könüllü ordunun və Cənubi Rusiyada ağqvardiyaçılar hərəkatının rəhbərlərindən biri; general-leytenant. Don ordusu atamanlarından. 186

Bolqayev, Mustafa bəy: Bakıdakı Krımlı tələbələrdən. 74

Bora, Vilyam [William Borah; 1865-1940]: Amerikanın siyasi xadimi, senator (1907-1940). 462

Bökeyxanov, Əlixan Nurmuxamed oğlu (1866-1937): Qazaxların ictimai-siyasi xadimi. Alaş-Orda Hökumətinin sədri olmuşdur. 333, 343

Böyük Petro: bax. Pyotr I.

Brassinqton, Ayzek [Isaac Brassington; 1870-1932]: Britaniyalı sosialist. 121

Bratianu, İonel [Ionel Brătianu; 1864-1927]: Rumıniyanın dövlət xadimi. Rumıniya Milli-Liberal Partiyasının lideri olmuşdur. Daxili İşlər, Müdafiə, Xarici İşlər naziri vəzifələrini tutmuş, müxtəlif vaxtlarda beş dəfə (o cümlədən 1914-cü ilin yanvarından 1918-ci ilin fevralına və 1918-ci ilin dekabrından 1919-cu ilin dekabrına qədər) Rumıniyanın Baş naziri olmuşdur. 263

Braun, Luis Edqar [Louis Edgar Browne; 1891-1951]: Birinci Dünya müharibəsi dövründə hərbi jurnalist idi. 291, 292

Brauninq, Con [John Browning; 1855-1926]: odlu silah ixtiraçı-konstruktoru. 52

Bredov, Nikolay Emilyeviç (1873 - ?): Rusiyanın hərbi xadimi; general-leytenant.

Ağqvardiyaçılar hərəkatının iştirakçısı. Könüllü ordunun Tsaritsın, Poltava, Kiyev və Çerniqovu işğalında iştirak etmişdir. Mühacirətə getmişdir. 118

Briqqs, Çarlz Ceyms [Sir Charles James Briggs; 1865-1941]: İngilis generalı. 1919-cu ilin fevral-iyun aylarında Cənubi Rusiyadakı ingilis qoşunlarının komandiri olmuşdur. 185

Bronşteyn, İ. M.: Bakıda fəaliyyət göstərmiş həkim. 50, 107, 169, 225, 283, 342, 397, 453, 508, 563, 618

Budaqov, Lazar Zaxaroviç (1812-1879): erməni türkoloqu və şərqşünası. Həştərxanda anadan olmuşdur. Tüflisdə və Sankt-Petersburq Universitetində Azərbaycan dili dərsləri vermişdir. 242, 243, 255

Buraqo, Pyotr Petroviç: Bakı Şəhər İdarəsinin katibi. 456, 593

Burjua, Leon [Léon Bourgeois; 1861-1925]: Fransanın dövlət xadimi. Baş nazir, Senatın Sədri, Xarici İşlər naziri kimi vəzifələr tutmuşdur. 14, 409

Buyneviç, Kazimir-Adam Albinoviç (1872-1953): Rus həkimi; Moskva Universitetinin professoru. 25, 80, 168, 225, 283, 368, 396

Buyvolov: pəhləvan; "Sibirya ayısı" ləqəbi ilə tanınmışdır. 1, 53, 171, 315, 345, 427, 483, 537, 566, 593, 621

Bürhanüşşəriə Mahmud əl-Buxari (XIV əsr): Buxaralı hənəfi məzhəbi alimi. 333

Cabbarlı, Cəfər: bax. Cabbarzadə, Cəfər.

Cabbarov, Bağır: bax. Cabbarzadə, Bağır.

Cabbarzadə, Bağır (1894-1951): Azərbaycan aktyoru. 196

Cabbarzadə, Cəfər (yaxud Cəfər Cabbarlı; 1899-1934): Azərbaycanın məşhur dramaturqu, şairi və teatr rejissoru. Cümhuriyyət dövründə Qafqaz Türk Tələbələri Mərkəzi Komitəsinin üzvü, Parlamentin türkcə stenoqrafı olmuşdur. 169, 201, 229, 253, 308

Cabir İsmayıl oğlu: Bakıda məşhur oğru olmuşdur. 31

Camal bəy: Dağıstanda könüllü ikinci taborunun komandanı olmuşdur. 104

Camalbəyov, Qasım bəy (1881-1938): Azərbaycanın ictimai-siyasi xadimi. Azərbaycanın müxtəlif yerlərində müəllimlik etmişdir. "Hümmət" partiyasının üzvü idi. Azərbaycan Parlamentinin üzvü olmuşdur. 176, 203, 376

Caparidze: Gürcüstan Dəmiryolu İdarəsinin rəisi. 494

Cavad ağa: mühəndis; BORN şirkətində mədən müdiri. 557

Cavad xan (1748-1804): Gəncə xanı; 1786-1864-cü illərdə hakimiyyətdə olmuşdur. Gəncə xanlığını işğalçı rus ordusuna qarşı müdafiə edərkən qəhrəmancasına şəhid olmuşdur. 633

Cavanşir, Həmid ağa: meşə təsərrüfatında işləmişdir; Cəmiyyəti-Xeyriyyənin üzvü olmuşdur. 394, 529

Cəbəsoy, İsmayıl Fazil paşa (1856-1921): Türkiyənin hərbi və siyasi xadimi. 291

Cəbi: Tağıyev fabrikində Zavod Komitəsinin üzvü olmuşdur. 334

Cəbrayıl Dadaş oğlu (Hacı Dadaş oğlu): Maştağa sakini. 450

Cəbrayılzadə, Kərim bəy: Azərbaycan Şeyxülislamlıq İdarəsinin katibi olmuşdur. 346

Cəfər: Müsavatın qurultayını hazırlayan komissiyanın üzvü olmuşdur. 364

Cəfər Qasım oğlu. 415

Cəfərquluzadə, İslam: "Müsavat"ın Qalabazar şöbəsi sədrinin müavini. 281

Cəfərli, Davud: Gəncə Kəndçi və Əkinçi İttifaqının katibi olmuşdur. 163, 164

Cəfərov, Əli İsgəndər (1875-1941): müəllim, naşir və ictimai xadim. "Nəşri-maarif" cəmiyyətinin katibi olmuş, bir sıra dərsliklərin yazılmasında və nəşrində yaxından iştirak etmiş, "Həyat", "İrşad", "Füyuzat" kimi mətbuat orqanlarıyla əməkdaşlıq etmiş, uşaqlar üçün "Dəbistan" jurnalını çıxarmışdır. Elmi məqalələr və bədii hekayələr qələmə almışdır. Məmməd Yusif Cəfərovun böyük qardaşı idi. 301, 312





Cəfərov, Məmməd (yaxud Məhəmməd) Yusif (1885-1938): Azərbaycanın dövlət xadimi. Ali hüquq təhsili almışdır. Rusiya Dövlət Dumasının üzvü olmuşdur. Azərbaycan Cümhuriyyəti dövründə müxtəlif tarixlərdə Sənaye və Ticarət naziri, Azərbaycanın Gürcüstandakı diplomatik nümayəndəsi və Xarici İşlər naziri olmuşdur. 174, 335, 436, 495, 497

Cəfərzadə, A.: Batumdakı Milli Müsəlman Şurasının sədri. 586, 609

Cəlal Musa oğlu: "Müsavat"ın Ağstafa şöbəsinin üzvü. 529

Cəlalzadə, Əliyusif: "Müsavat" üzvü; "Müsavat"ın 1919-cu il dekabr qurultayının nümayəndəsi. 640

Cənnəti, Əbdülxaliq: bax. Qafarzadə, Əbdülxaliq Cənnəti.

Colitti, Covanii [Giovanii Giolitti; 1842-1928]: İtaliyanın siyasi xadimi; 1892-1921-ci illər arasında müxtəlif dövrlərdə 5 dəfə Baş nazir olmuşdur. 540

Comarcidze: Gürcüstan hüquqşünası; Tiflis Məhkəmə Palatasının mühüm işlər müstəntiqi olmuşdur. 250

Çaykin, Vadim Afanasyeviç (1886-1941): rus jurnalisti və siyasi xadim. 345

Çemberlen, Nevill [Neville Chamberlain; 1869-1940]: Birtaniyanın siyasi xadimi. 1918-ci ildə Parlamentə seçilmiş, 1920-ci illərdə Səhiyyə naziri, 1920-ci və 1930-cu illərdə Maliyyə naziri olmuşdur. 1937-1940-cı illərdə Britaniyanın Baş naziri vəzifəsini tutmuşdur. 575

Çepisov, Dmitri: Bakıda yaşamış Həştərxan quberniyası sakini. 448

Çermoyev, Əbdülməcid Tapa (1882-1936): Şimali Qafqaz dağlılarının siyasi xadimi, azadlıq hərəkatı liderlərindən biri, milliyyətcə çeçendir. Birinci Dünya müharibəsi illərində "Vəhşi diviziya"nın çeçen alayında xidmət etmişdir. Şimali Qafqaz Dağlı Xalqları İttifaqının qurucularından biri və Dağlılar Respublikasının başçısı olmuşdur. 379

Çernyayevski, Aleksey Osipoviç (1840-1894): Maarifçi, pedaqoq. Şamaxıda doğulmuş, Azərbaycanda və Azərbaycandan kənarda təhsil sistemində çalışmış, Qori Seminariyasının Azərbaycan şöbəsinin müfəttişi olmuşdur. "Vətən dili" dərsliyinin (II hissəsi Səfərəli bəy Vəlibəyovla birgə) müəllifidir. 223

Çeyişvili: Kutais mahal məhkəməsinin üzvü. 421

Çəmənzəminli, Yusif Vəzir (Vəzirov; 1887-1943): Azərbaycan yazıçısı və diplomatı. 187

Çxeidze, Nikolay Semyonoviç (1864-1926): Rusiyanın və Gürcüstanın siyasi xadimi. Rusiya Dövlət Dumasının üzvü olmuşdur. Zaqafqaziya Seyminin və Gürcüstan Müəssislər Məclisinin sədri olmuşdur. Gürcüstan tərəfindən Paris Sülh Konfransında iştirak edən nümayəndə heyətinin sədri olmuşdur. Gürcüstanın sovetləşməsindən sonra mühacirətə getmişdir. 235, 644

Çiçerin, Georgi Vasilyeviç (1872-1936): Rusiyanın siyasi xadimi və diplomatı. 1918-1923-cü illərdə Rusiyanın, 1923-1930-cu illərdə SSRİ-nin Xarici İşlər xalq komissarı olmuşdur. 431

Çiçinadze: Hacıqabul dəmiryolu stansiyasının rəisi olmuşdur. 47

Çikukidze: Çixaturidə (Gürcüstan) xalq qvardiyası üzvü. 340

Çimnaz Rza qızı: Bakıdakı qaçqınlardan. 338

Çoxeli: Xalq qvardiyası rəisi. 583

Çokayev, Mustafa (yaxud Mustafa Çokay; 1890-1941): Qazax ictimai-siyasi xadimi. Türküstanın birliyi və müstəqilliyi uğrunda mübarizə aparmışdır. 345

Çörçill, Uinston [Winston Churchill; 1874-1965]: Britaniyanın görkəmli dövlət xadimi. 180, 234, 264, 265, 408

Çürüksulu Mahmud paşa (1865-1931): Osmanlı dövlətinin hərbi və siyasi xadimi; Məclisi-Əyan üzvü. Əslən gürcü idi. 354, 355, 369, 370

D'Annunsio, Qabriele [Gabriele D'Annunzio; 1863-1938]: İtaliyanın siyasi və hərbi xadimi; eyni zamanda şair, yazıçı və dramaturq. 1919-1920-ci illərdə, tanınmayan Fiume Respublikasının diktatoru olmuşdur. 40, 41, 235, 359, 409, 432
D'Nunankorop: Fransanın Qafqazdakı hərbi missiyasının başçısı; polkovnik. 495, 582, 583
Dadanov, Həsən: tütün və maxorka ixracı ilə məşğul olub. 9
Dadaş Hacı İbrahimzadə: bax. Kərimli Dadaş.
Dadaş Tağı oğlu: Bakıdakı qaçqınlardan. 394, 449
Dadaşov, Əliislam: Azərbaycan aktyoru. 196
Dadaşova: Bakı sakini. 614
Dadiani, Georgi Platonoviç. 567
Damad Fərid paşa (1853-1923): Türkiyənin siyasi xadimi. 4 mart – 30 sentyabr 1919-cu il və 5 aprel – 17 oktyabr 1920-ci il tarixlərində Baş nazir olmuşdur. 43, 44, 269, 270, 291
Damaşke, Adolf [Adolf Damaschke; 1865-1935]: Almaniyanın siyasi xadimi; torpaq islahatının fəal tərəfdarı. 629
Darablı, Rza (yaxud Rza Darablinski, Rza Hüseynov; 1883-1942): Azərbaycanın teatr aktyoru. "Nicat", "Səfa", "Hacıbəyov qardaşları müdiriyyəti" truppalarında çıxış etmişdir. Moskvada teatr texnikumunu bitirmişdir. 167, 196, 309, 589
Darvil, Stefan. 289
David, Eduard [Eduard David; 1863-1930]: Veymar Respublikasının siyasi xadimi. 147
Davud: "Azərbaycan" qəzetində imza; Gəncədən yazmışdır. 506, 560
Davud (yaxud David): İsrailoğullarına göndərilmiş peyğəmbər; "Bibliya"ya görə, İsrailin ikinci çarı; müxtəlif mənbələrə görə, e. ə. XI-IX əsrlər arasında yaşamışdır. 317, 343, 410, 426
Dekanozişvili, Andriya (1867-1955): Gürcüstanın ictimai-siyasi xadimi; yazıçı. Gürcüstan Sosialist-Federalist Partiyasının qurucularından olmuşdur. Gürcsütanı xaricdə (Argentinada, Avropada) təmsil etmişdir. Mühacirətə getmişdir. 463, 531
Dekart, Rene [René Descartes; 1596-1650]: Fransız filosofu və riyaziyyatçısı. 347
Delabuş, Antuan: Roma papasının Qafqazdakı səfiri. 278, 361
Delakrua, Leon [Léon Delacroix; 1867-1929]: Belçikanın siyasi xadimi. 1918-1920-ci illərdə Baş nazir olmuşdur. 571
Delli, Edmund: Amerika hərbçisi; polkovnik. Antantanın Naxçıvandakı qubernatoru təyin edilmişdi. 44, 239
Demofil. 305
Denikin, Anton İvanoviç (1872-1947): Rusiyanın hərbi xadimi, general-leytenant. Ağ qvardiyanın rəhbərlərindən olmuşdur. Birinci Dünya müharibəsində Qərb cəbhəsinin (may-iyul 1917) və Cənub-qərb cəbhəsinin (avqust 1917), Rusiyada Vətəndaş müharibəsi illərində Könüllü ordunun (aprel 1918 – yanvar 1919) və Cənubi Rusiya Silahlı Qüvvələrinin (yanvar 1919 – aprel 1920) komandiri olmuşdur. 1920-ci ildə mühacirətə getmişdir. 2, 3, 4, 5, 6, 11, 17, 18, 27, 38, 42, 43, 56, 63, 90, 97, 98, 99, 121, 147, 153, 158, 180, 185, 186, 206, 207, 211, 234, 263, 264, 265, 279, 287, 320, 321, 358, 376, 379, 380, 407, 408, 409, 428, 429, 431, 432, 460, 479, 492, 493, 511, 512, 517, 540, 541, 542, 543, 546, 569, 572, 573, 586, 601, 602, 609, 628
Dərbəndi, Hacı Molla Tağı: Azərbaycan müəllifi. 243
Dias, Armando [Armando Diaz; 1861-1928]: İtaliyanın hərbi xadimi. Birinci Dünya müharibəsinin gedişində İtaliya Baş Qərargahının rəisi təyin edilmişdi. 1924-cü ildə marşal rütbəsi almışdır. 431
Doburckanidze, Georgi Milki-Sedikoviç. 193





Dorton: casusluq ittihamı ilə İranın şimalında ingilislər tərədindən həbs edilmiş avstriyalı. 128
Dumbadze: Gürcü Müsəlmanlara Himayət Cəmiyyətinin təsisçilərindən. 365
Dumenko, Boris Mokeyeviç (1888-1920): Rusiyada Vətəndaş müharibəsi illərində Qırmızı ordunun süvari korpusunun komandiri olmuşdur. 146
Dumer, Pol [Paul Doumer; 1857-1932]: Fransanın dövlət xadimi. 1917-ci ildə Hərbi komitənin üzvü təyin edilmişdi. Nazir, Senatın sədri, Prezident (1931-1932) olmuşdur. 148
Dursunzadə, Məhəmmədzəki (1893-1937): Gürcüstanın Axalsıx rayonunda anadan olmuşdur. Cümhuriyyət tələbələrindən idi. Bir müddət İstanbul Universitetində oxumuş, daha sonra Almaniyada hüquq fakültəsini bitirmişdir. 1937-ci ildə Gürcüstanda həbs edilərək güllələnmişdir. 502
Düamel, Jorj [Georges Duhamel; 1884-1966]: fransız şairi və yazıçısı. 41
Düzdaban, Əli Rza paşa: bax. Əli Rza paşa.
Dyölafua, Marsel [Marcel Dieulafoy; 1844-1920]: Fransız arxeoloqu; İran üzrə mütəxəssis. 409
Dzerjinski. 148
Dzneladze, Georgi: Gürcüstanda bolşevik dəstəsi lideri. 341
Eberhardt, Valter fon [Walter von Eberhardt; 1862-1944]: Almaniyanın hərbi xadimi; general-leytenant. Pribaltikada Rüdiger fon der Qoltsu əvəz etmişdir. 461
Ebert, Fridrix [Friedrich Ebert; 1871-1925]: Almaniyanın siyasi xadimi; sosial demokrat. 1918-ci ilin noyabrından 1919-cu ilin fevralına qədər Almaniyanın Baş naziri, 1919-cu ilin fevralından 1925-ci ilin fevralına qədər Almaniya Prezidenti olmuşdur. 629
Erberq: Fransa Xarici İşlər Nazirliyində Qafqaz işləri vəkili. 332
Erdeli, İvan Georgiyeviç (1870-1939): Rusiyanın hərbi xadimi, general. Könüllü ordunun qurucularından olmuşdur. 1919-cu ilin yanvarından Zaqafqaziya və Şimali Qafqazda fəaliyyət göstərmişdir. 245, 296
Erzberqer, Mattias [Matthias Erzberger; 1875-1921]: Alman yazıçısı və siyasətçisi. Birinci Dünya müharibəsi sonunda atəşkəs müqaviləsinin imzalanması üçün Almaniya tərəfindən yaradılan komissiyanın başçısı təyin olunmuşdu. Daha sonra Veymar Təsisçilər Məclisinin üzvü olmuş və Maliyyə naziri vəzifəsini tutmuşdur. Suiqəsd nəticəsində öldürülmüşdür. 91, 92
Eynulla: İranlıların maarif cəmiyyəti "Tərəqqi"nin üzvü. 530
Eynüddövlə, Əbdülməcid Mirzə (1845-1927): İranın dövlət xadimi. Sədrəzəm (3 dəfə), Azərbaycan əyaləti hakimi olmuşdur. 464
Ə. H.: bax. Qaraağazadə, Əhməd Həmdi.
Əbdüləli: Tağıyev fabrikində Zavod Komitəsinin üzvü olmuşdur. 334
Əbdülhəmid II (1842-1918): Osmanlı sultanı; 1876-1909-cu illərdə hakimiyyətdə olmuşdur. 35
Əbdülməcid əfəndi: Dərbənd şəhərinin qazısı olmuşdur. 215
Əbdürrəhim Hüseynəli oğlu (Molla Əbdürrəhim): Bakıdakı qaçqınlardan. 365
Əbdürrəhimzadə, Əbdürrəhim ağa: Azərbaycan Şeyxülislamlıq İdarəsində arxiv işçisi, kargüzar olmuşdur. 346
Əbdürrəhmanzadə, İslam: "Müsavat"ın Qalabazarı (Masallı) şöbəsinin katibi. 281
Əbdürrəzzaq Qəhrəman oğlu: Bakıdakı qaçqınlardan. 338, 365, 394
Əbilov, İbrahim (1881-1923): Azərbaycanın siyasi xadimi, inqilabçı və diplomat. Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur. Azərbaycan Sovet Sosialist Respublikasının Türkiyədə fövqəladə və səlahiyyətli səfiri vəzifəsini tutmuşdur. 33, 88, 89, 176, 203, 377, 378, 405

Əbutalıb (Məşhədi Əbutalıb): Bakı sakini. 369
Əbülfəzl Cavad oğlu. 614
Əbülqasım Haqnəzər oğlu: Quba qəzasının Ərəb Həmyə kəndinin sakini. 639
Əfəndili, Əhmədağa: bax. Əfəndizadə, Əhmədağa.
Əfəndiyev, Abdulla bəy: bax. Əfəndizadə, Abdulla bəy.
Əfəndiyev, Vəli: “Müsavat”ın Ağstafa şöbəsinin üzvü. 529
Əfəndizadə, Abdulla bəy İsmayıl əfəndi oğlu (yaxud Əfəndiyev; 1875-1928): Tiflisdə Aleksandr Müəllimlər İnstitutunu bitirmiş, Azərbaycanın bir sıra şəhərlərində müəllimlik etmiş, Şəkidə müəllim kursları və məktəblər açdırmışdır. Şəki Şəhər Bankının və Şəki Şəhər Dumasının sədri olmuşdur. Şəkidən Azərbaycan Parlamentinə üzv seçilmişdir. 36, 133, 157, 389, 390, 391, 586
Əfəndizadə, B.: “Azərbaycan” qəzetinə Şəkidən yazmışdır. 76
Əfəndizadə, Carulla: Padar “Əhrar” firqəsinin sədr müavini olmuşdur. 586
Əfəndizadə, Əbdülxalıq əfəndi: Şeyxülislamlıq İdarəsinin üzvü olmuşdur. 374
Əfəndizadə, Əhməd: “Azərbaycan” qəzetində imza; Dağıstan haqqında yazmışdır. 216
Əfəndizadə, Əhmədağa: Göyçay Müəllimlər İttifaqı idarə heyətinin üzvü. 340
Əfəndizadə, Hacı Hüseyn (yaxud Əfəndiyev; 1887-1920): Göyçay qəzasından Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü seçilmişdir. 202, 554, 616, 617
Əfəndizadə, İbrahim: “Müsavat”ın Təngərud şöbəsinin katibi. 531
Əfəndizadə, Muxtar (1880-1975): Azərbaycanın elm xadimi, şərqşünas. Maarif sahəsində böyük xidmətləri olmuşdur. Ərəş qəzasından Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur. “Əhrar” partiyasının üzvü idi. 115, 349, 377, 405
Əfəndizadə, Sədi: Bakılı şagird. 22
Əhməd Cavad (Axundzadə, 1892-1937): Azərbaycanlı şair və ictimai xadim. Azərbaycan Respublikasının Dövlət Himninin sözləri Əhməd Cavada məxsusdur. 250, 251, 307, 308, 529
Əhməd Fevzi paşa: 1919-cu ildə hökumət tərəfindən Ankaraya göndərilən tədqiq heyətinin rəhbəri olmuşdur. 576
Əhməd Fərid bəy: Türk Ocağı cəmiyyətinin üzvü; bax. Tək, Əhməd Fərid.
Əhməd İzzət paşa (yaxud Əhməd İzzət Furqaç; 1864-1937): Türkiyənin hərbi və siyasi xadimi. Alman ordusunda təlim keçmişdir. Birinci Dünya müharibəsində Şərq Ordular Qrupunun tərkibindəki İkinci Ordunun komandanı olmuşdur. 14 oktyabr – 8 noyabr 1918-ci ildə Osmanlı dövlətinin Sədrəzəmi (Baş Naziri) olmuşdur. Türk Qurtuluş Savaşında iştirak etmişdir. Türkiyədə soyadları haqqında qanun çıxdıqdan sonra “Furqaç” soyadını qəbul etmişdir. 293, 294
Əhməd Rza bəy (1858-1930): Osmanlının siyasi xadimi. İttihad və Tərəqqi cəmiyyətinin liderlərindən biri olmuşdur. Vəhdəti-Milliyyə cəmiyyətinin qurucusu idi. 1908-1912-ci illərdə Osmanlı Məclisi-Məbusanının sədri vəzifəsini tutmuşdur. Bir müddət Avropada (Fransada, İsveçrədə, Belçikada) yaşamışdır. 269, 293
Əhmədov: Bakı Bələdiyyə İdarəsinin üzvü. 71
Əhmədov, Əfəndi: Dağıstanın Qasımkənd kəndindən olan tacir. 215
Əhmədov, Əsədulla Əhməd oğlu (1867-1941): Azərbaycanın ictimai-siyasi xadimi, xeyriyyəçi. Nəşri-Maarif Cəmiyyətinin təsisçilərindən biri idi. Bakı Bələdiyyə Məclisinin, Azərbaycan Cümhuriyyəti Parlamentinin və “Müsavat” partiyasının üzvü olmuşdur. 36, 74, 137
Əhmədov, Əziz: başqırd xanəndəsi. 193
Əhmədov, Sadıq: Azərbaycan Cümhuriyyəti Ticarət və Sənaye Nazirliyində Sənaye şöbəsi müdiri olmuşdur. 434





Əhmədzadə, Əbdülhakim Şeyx: Teymurxanşura sakini. 368
Əhmədzadə, İsmayıl: Azərbaycan Şeyxülislamlıq İdarəsinin katibi olmuşdur. 346
Əjdər Əmirəli oğlu (Kərbəlayı Əjdər): Quba qəzasının Ərəb Həmyə kəndinin sakini. 639
Əkbərzadə, Əbdülhüseyn: Azərbaycan Şeyxülislamlıq İdarəsində katib olmuşdur. 346
Əl-Məazi, Abdulla: Rusiyalı müəllim. 334
Ələkbərzadə, Ələsgər: tələbə, “Müsavat” partiyasının üzvü. 364
Ələsgər Kamal: bax. Kamal, Ələsgər.
Ələsgərov, Sadıq: Bakı sakini. 283, 342
Ələsgərov, Tağı (Hacı Tağı): Bakı sakini. 283, 342
Əli: Bakıdakı Qars qaçqınlarından; uşaq. 137
Əli Güləli oğlu (Hacı Əli): Quba qəzasının Ərəb Həmyə kəndinin sakini. 639
Əli Hüseyn oğlu: “Tula” gəmisində sükançı olmuşdur. 162
Əli İmamqulu oğlu (Kərbəlayı İmamqulu oğlu): Tovuzun Qoşa kəndinin sakini. 134
Əli Məhəmmədhüseyn oğlu: Bakıdakı İran təbəələrindən. 475
Əli Rza paşa (1860-1932): Osmanlı dövlət xadimi. “Düzdaban Əli Rza paşa” adıyla tanınmışdır. 1908-ci ildə Hərbi nazir, 1909 və 1918-ci illərdə Bəhriyyə naziri, 1919-1920-ci illərdə Baş nazir, 1922-ci ildə Daxili İşlər naziri olmuşdur. 294
Əlibəyov, Əliabbas: Quba Bələdiyyə rəisi. 361
Əliəkbər Abbas oğlu: Bakıdakı Qars qaçqınlarından. 220
Əliəkbər Abdulla oğlu: İran vətəndaşı. 554
Əliəkbər Mahmud oğlu: Bakıda polis olmuşdur. 31
Əliəkbər Mail oğlu (Hacı Əliəkbər): Quba qəzasının Ərəb Həmyə kəndinin sakini. 639
Əliəkbər Məhəmməd oğlu: Bakı sakini; Suraxanski (indiki Dilarə Əliyeva) küçəsində yaşamışdır. 46
Əliəkbərov: Şamaxı şəhərinin birinci hissəsinin pristavı olmuşdur. 586
Əliəsgər Əli oğlu: Balaxanada nef mədənində fəhlə olmuşdur. 557
Əliəsgər Tağı oğlu: Bakıdakı İran təbəələrindən. 475
Əlif.: “Azərbaycan” qəzetində imza. 329
Əliheydər: Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin qaçqınlara müavinət edici komisyonunun üzvü. 477
Əliheydər Ağa oğlu (Kərbəlayı Ağa oğlu): Lahıc sakini. 280
Əlihüseyn Əliəsgər oğlu: Bakı sakini. 448
Əlihüseyn İbrahim oğlu (Molla İbrahim oğlu): Bakıda Yetimlər yurdunda qalan uşaq. 394
Əlixanov, Kaytmas: bax. Əlixanov-Avarski, Kaytmas.
Əlixanov-Avarski, Kaytmas (1858-1921): Rus ordusunun zabiti. General Maqsud Əlixanov-Avarskinin kiçik qardaşı. 1919-cu ildə Avar okruqunun rəisi idi. 546
Əliisgəndərzadə, Səməd bəy: mühəndis; “Müsavat” üzvü. Balaxanı-Sabunçu polismeysteri; Azərbaycan Mülkiyyə Müfəttişliyi Bakı şəhər dairəsi şöbəsi müfəttişi olmuşdur. 485, 640
Əlikərimov, Nasir: Kəndçilər İttifaqı İdarə heyətinin üzvü olmuşdur. 622
Əlikərimzadə, Nasir: bax. Əlikərimov, Nasir.
Əliqulu Cumay oğlu: Bakı sakini. 221
Əliməhəmməd: Dağıstanda Belici stansiyasında çayçı olmuşdur. 215
Əlipənah Mustafa oğlu: Quruzma kəndinin (Sabirabad) sakini. 619
Əlirza: “Azərbaycan” qəzetində imza. 578, 608
Əlirza xan Qaragözlü (Bəhaülmülk; 1884-1954): İranın siyasi xadimi; Həmədandan İran Milli Məclisinə seçilmiş, Maliyyə və Ədliyyə naziri olmuşdur. 465

Əliverdibəyov, Qara bəy (1879-1929): Azərbaycanın ictimai-siyasi xadimi. Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur. 349, 377

Əliverdili, Qara bəy: bax. Əliverdibəyov, Qara bəy.

Əliyev. 453, 481

Əliyev: Bakı Şəhər Bələdiyyə İdarəsinin üzvü. 386

Əliyev: Ticarət, Sənaye və Ərzaq Nazirliyində xüsusi məmur. 534, 562, 590

Əliyev, Cahangir İmaməli oğlu: Bakı sakini. 279, 284

Əliyev, Əhməd: Qaraimanlı kəndinin (Neftçala) sakini. 217

Əliyev, Əlimuxtar (yaxud Muxtar Əliyev; 1884-1954): Həkim; Kiyevdə tibb təhsili almış, Bakıda həkimlik etmiş və ictimai fəaliyyətlə məşğul olmuşdur. 395

Əliyev, Knyaz: Azərbaycan hərbi attaşesi. 583

Əliyev, M. R.: Gürcüstandakı müsəlman məktəblərinin müfəttişi. 367

Əliyev, Məhəmməd bəy: bax. Əlizadə, Məhəmməd bəy.

Əliyev, Məhəmməd bəy: Bakı qəzası Hərbi çağırış idarəsinin rəisi olmuşdur. 255

Əliyev, Mirzə Məhəmməd: Xeyriyyə Cəmiyyətinin üzvü. 529, 559

Əliyev, Muxtar: bax. Əliyev, Əlimuxtar.

Əliyev, Murad: Azərbaycan Ordusunun əsgəri. 445

Əliyev, Sultanmurad: Bakıda Birinci Aliibtidai məktəbinin müəllimi olmuşdur. 48

Əliyev, Şəkərəli: "Müsavat" üzvü; "Müsavat"ın 1919-cu il dekabr qurultayının Buzovnadan nümayəndəsi. 640

Əliyev, Tağı: bax. Əlizadə, Tağı.

Əliyev, Yusifəli: Ticarət və Sənaye nazirinin müavini olmuşdur. 174, 452, 481, 507

Əlizadə, Hacıbala: "Müsavat"ın Suraxana təşkilatının üzvü. 558

Əlizadə, Məhəmməd bəy: Azərbaycanın hərbi xadimi; polkovnik. 1919-cu ildə Azərbaycanın Gürcüstandakı hərbi attaşesi təyin edilmişdi. 444

Əlizadə, Rza: Gürcüstanda müsəlman məktəbləri baş müfəttişi olmuşdur. 478, 531

Əlizadə, Sultan (Kərbəlayi Sultan): Bakı Zərgərlər Təşkilatının sədri. 641

Əlizadə, Tağı: Müsəlman Tələbələri İttifaqının üzvü olmuşdur. 529

Əlizadə, Yusif: Bakı Sənaye məktəbində oxumuşdur; Bakı Politexnik məktəbi Türk Mütəəllimləri Təşkilatı İcraiyyə Komitəsinin katibi olmuşdur. 219

Əlməhəmmədov, Əziz: Tatar xanəndəsi. 252, 253

Əmi Manaf oğlu: Bakı sakini. 48, 365

Əminov, Ağa Məşhədi Kərim oğlu (yaxud Əminzadə; 1888-1921): "Müsavat" partiyasının, Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur. 1919-cu ildə Ticarət və Sənaye naziri vəzifəsini tutmuşdur. 26, 51, 80, 109, 480, 508, 535

Əminzadə, Əbülqasım əfəndi: Şamaxı və Bakının sünniməzhəb qazısı olmuşdur. 455

Əmir Ərşad (Sam xan Hacıəlili; 1866-1922): İran sərkərdəsi. 465

Əmir Müqtədir: İranda hökumət qoşunu başçılarından. 127

Əmir Nizam: Kirmanşah (İran) hakimi. 465

Əmirbəyov, M.: Bakı sakini. 221

Əmircanov, Əbdüləli bəy (1870-1948): Azərbaycanın ictimai-siyasi xadimi. Tiflisdə Müəllimlər İnstitutunu bitirmiş, Azərbaycanın bir sıra yerlərində müəllim işləmişdir. Azərbaycan Cümhuriyyəti Hökumətində Maliyyə naziri, Dövlət Nəzarəti naziri vəzifələrini tutmuşdur. Cümhuriyyətin süqutundan sonra Türkiyəyə mühacirətə getmişdir. 74, 137, 176, 177

Əmirxanov, Mirzə: "Müsavat"ın Hacıqabul şöbəsinin üzvü. 529

Əmirov, Azad bəy (1889-1939): Azərbaycanın maarif xadimi; həkim və hüquqşünası. Qori Seminariyasını, Moskva Universitetinin Hüquq fakültəsini bitirmişdir. Novorossiya Universitetinin (Odessa) Tibb fakültəsindəki təhsilini yarımçıq qoymuş, Azərbaycanda maarif sahəsində müxtəlif vəzifələrdə işləmişdir. Sovetləşmədən sonra Azərbaycan Dövlət Universitetinin Tibb fakültəsini bitirmiş, Azərbaycanın ilk fizioloqlarından olmuşdur. 157

Əmirzadə, Onbay. 577

Əmrah Əli oğlu: Bakıdakı Zəngəzur qaçqınlarından. 303

Əmrulla Əlimərdan oğlu: Bakı sakini. 448

Əmrullah əfəndi (1858-1914): Osmanlının dövlət xadimi. 1910-1911-ci illərdə və 1912-ci ildə iki dəfə Maarif naziri olmuşdur. 549

Ənvər paşa (1881-1922): Osmanlı dövlətinin hərbi və siyasi xadimi. İttihad və Tərəqqi cəmiyyətinin liderlərindən idi. 1914-1918-ci illərdə Osmanlı dövlətinin Hərbi naziri, Baş Qərargah rəisi olmuşdur. Türk xalq-larını birləşdirmək uğrunda mübarizə aparmışdır. 323, 397

Ərdəbili, Hacı Baba xan (1877-1922): İran Məşrutə hərəkatının üzvü. 127, 150, 151, 163

Ərdəbili, Mirzə Əliəkbər: İranlı axund. 465

Ərus Molla Əhməd qızı: Bakıdakı Dərbənd qaçqınlarından. 450

Əsədulla Hüseyn oğlu (Məşhədi Hüseyn oğlu): Quba qəzasında kənd camaatının vəkili olmuşdur. 245

Əsədulla Şükür oğlu: avtomobil zavodunda işləmişdir. 557

Əsədullazadə, Hüseyn: "Azərbaycan" qəzetinə Qalabazardan (Masallıdan) məktub yazmışdır. 305

Əsədullazadə, Məhəmmədəli (yaxud Məhəmmədəli Tabaqçı): Bakıda səyyar satıcı (tabaqçı); Tabaqçılar İttifaqının üzvü. 556

Əsgərov, Əliabbas: Bakı Politexnik məktəbinin şagirdi. 421

Əsgərov, Əliabbas Qafar oğlu: Bakı sakini. 247, 256

Əsgərzadə, Cəfər (Mirzə Cəfər): Gəncə Türk Müəllimləri İttifaqının üzvü olmuşdur. 529

Əsgərzadə, Səlimxan: "Müsavat"ın Suraxana təşkilatının üzvü. 558

Əsgərzadə, Yusif: Bakı sakini. 638

Əsribekov: Ermənistanın Tersk hökuməti nəzdindəki siyasi nümayəndəsi. 296

Əzim Lətif oğlu: Bakıdakı İranlılardan. 421

Əzimzadə, Seyfulla: "Müsavat" üzvü; "Müsavat"ın 1919-cu il dekabr qurultayının Sabunçudan nümayəndəsi. 640

Əziz Nuru oğlu: Könüllü Təşkilatının üzvü. 193

Əzizbəyli, Hacıağa: bax. Əzizbəyov, Hacıağa.

Əzizbəyli, Xudadad bəy: İran maarif cəmiyyəti "Tərəqqi"nin idarə heyətinin sədri. 194, 195, 246, 449, 529

Əzizbəyov, Hacıağa: Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin katibi olmuşdur. 138, 559

Əzizə Yoldaş qızı: Bakıdakı türk qaçqınlarından. 247

Falkenhayn, Erix fon [Erich von Falkenhayn; 1861-1922]: Almaniyanın hərbi xadimi; general. Hərbi nazir (1913-1914), Baş Qərargahın rəisi (1914-1916) olmuşdur. 323, 382, 383, 384

Fatma Məhəmməd qızı: Bakıdakı qaçqınlardan. 394

Faysal I (1885-1933): Hicaz kralı Şərif Hüseynin oğlu idi. 1920-ci ildə Suriya kralı, 1921-1933-cü illərdə İraq kralı olmuşdur. 352, 369, 575

Ferdinand I [Ferdinand I, 1861-1948]: Bolqarıstan çarı. 1908-ci ildə Üçüncü Bolqar çarlığının əsasını qoymuşdur. Bolqarıstanın Birinci Dünya müharibəsində məğlubiyyətindən sonra, 3 oktyabr 1918-ci ildə oğlu III Borisin xeyrinə taxtdan çəkilmişdir. 262



XIV cild "AZƏRBAYCAN" QƏZETİ

Feyzulla Feyzulla oğlu: "Müsavat" üzvü; "Müsavat"ın 1919-cu il dekabr qurultayının Buzovnadan nümayəndəsi. 640
Fərişə: Bakıda Yetimlər yurdunda qalan qız uşağı. 394
Fərzəlibəyov: Bakıda, birinci polis sahəsinin pristavı olmuşdur. 31
Fətəli şah Qacar (1771-1834): İran şahı; Qacarlar sülaləsinin ikinci şahı. 1797-1834-cü illərdə hakimiyyətdə olmuşdur. 401
Fəthəli Qurban oğlu: Könüllü Təşkilatının üzvü. 193
Fəthəlibəyov, Surxay bəy: Quba şəhəri ikinci sahə pristavının müavini. 447
Fəthi paşa: Türkiyənin hərbi xadimi; general. 1919-cu ildə hökumət tərəfindən Sivasa göndərilən tədqiq heyətinin rəhbəri olmuşdur. 493, 515
Fəttahov: Azərbaycanda nazirlikdə işləmişdir. 434
Fətullazadə, Əsədulla: "Müsavat"ın Qızılağac şöbəsinin sədri. 531
Fixte, Yohann Qotlib [Johann Gottlieb Fichte; 1762-1814]: Alman idealizminin nümayəndəsi olan filosof. 347
Fikri Şükrü oğlu: Bakıdakı Qars qaçqınlarından. 220
Fiqarov, Əlimirzə: Bakıdakı dərbəndlilərdən. 479
Filibert, Emmanuil [Emnuele Filiberto; 1869-1931]: Savoyya xanədanına mənsub İtaliya prinsi; Aosta hersoqu; marşal. 409
Filimonov, Aleksandr Petroviç (1866-1948): Rusiyanın hərbi xadimi; general-leytenant. Kuban Xalq Respublikasının atamanı olmuşdur. 512
Finkelşteyn, V. K.: Bakıda fəaliyyət göstərmiş həkim. 157, 369, 396, 452, 507, 560, 618
Firdovsi (935-1020): Fars şairi, fars ədəbiyyatının ən böyük nümayəndələrindən biri. 633
Fiskov: Kuban Radasının üzvü. 623
Fişer: Britaniya admiralı. 183
Forster 573
Foş, Ferdinand [Ferdinand Foch, 1851-1929]: Fransanın hərbi xadimi, marşal. 40, 58, 60
Fransisk I [François Ier; 1494-1547]: Fransa kralı; 1515-1547-ci illərdə hakimiyyətdə olmuşdur. 63
Fridrix, Stefan (yaxud İştvan Fridrix) [István Friedrich; 1883-1951]: Macarıstanın siyasi xadimi. 493
Furqaç, Əhməd İzzət: bax. Əhməd İzzət paşa.
Füzuli, Məhəmməd (1494-1556): məşhur Azərbaycan şairi. Türkdilli klassik poeziyanın ən böyük şairi kimi qəbul edilir. 242
Fyodorov: təyyarəçi. 183
Gedevanov, Aleksandr Konstantinoviç (yaxud Gedevanişvili; 1870 - 1933): Knyaz; Gürcüstanın hərbi xadimi, general-mayor. Qafqazdakı Rusiya hərbi hissələrində, Gürcüstan müstəqil olduqdan sonra bu ölkənin ordusunda xidmət etmişdir. 1918-ci ilin əvvəllərində Batuminin komendantı, sonra Gürcüstan Hərbi nazirinin müavini və Hərbi Şuranın üzvü olmuşdur. 1918-ci ilin yayından 1919-cu ilin yazına qədər Gürcüstan silahlı qüvvələrinin Baş komandanı vəzifəsini daşımızdır. 494, 582
Gegeçkori, Yevgeni Petroviç (1881-1954): Gürcüstanın dövlət xadimi. Menşevik. Hüquq təhsili almışdır. Zaqafqaziya Komissarlığının sədri seçilmişdi. Gürcüstan müstəqilliyini elan etdikdən sonra Xarici İşlər naziri, 1921-ci ildə isə Ədliyyə naziri oldu. Gürcüstanın sovetləşməsinin ardından mühacirət etdi. 477, 490, 494, 496, 546, 547, 582, 583, 585
Gənc Əli İbad oğlu: pəhləvan. 144, 201, 285, 315, 345, 371, 399, 424, 427, 456, 537, 566, 593, 621
Giray, Sultan Keleç. 600
Giray, Sultan Şahim. 600
Gökalp, Ziya (1876-1924): Türk sosioloqu, şairi və siyasətçisi. Türkiyədə





milliyyətçiliyin ən böyük ideoloqu olaraq qəbul edilir. 469, 470
Güllü Məhəmməd qızı: Qars qaçqını. 220
Gülüstan Molla Əhməd qızı: Bakıdakı Dərbənd qaçqınlarından. 450
H. S.: "Azərbaycan" qəzetində imza. 442
Hacı Artıq: Bakı sakini. 247
Hacı Baba xan: bax. Ərdəbili, Hacı Baba xan.
Hacı Əhməd qızı: Bakılı yetim. 48
Hacı Əli oğlu (Məşhədi Hacı Məşhədi Əli oğlu): Lahıc sakini. 281
Hacı Kazım bəy: Şərqşünas alim Mirzə Kazım bəyin oğlu. 241
Hacı Məşhədi oğlu (Məşhədi Hacı): Lahıc sakini. 136
Hacı Mirzə Əbdülvahab: İranın siyasi xadimi; Həmədandan İran Milli Məclisinə seçilmişdir. 465
Hacıağa: Könüllü Təşkilatının üzvü. 193
Hacıağa Əliməhəmməd oğlu: Bakı sakini. 369
Hacıbababəyov, Hüseynağa (1898-1972): Azərbaycanın opera müğənnisi. Azərbaycan SSR Xalq artisti. Şamaxıda anadan olmuşdur. 588, 589
Hacıbababəyov, Mehdi bəy (1871-1925): Azərbaycanın ictimai-siyasi xadimi. Zaqafqaziya Seyminin, Azərbaycan Milli Şurasının və Parlamentin üzvü olmuşdur. 49, 78, 117, 167, 178, 565, 594
Hacıbəyli, Ceyhun bəy (yaxud C. Dağıstani; 1891-1962): Azərbaycanlı filoloq, tarixçi, jurnalist və ictimai xadim. Peterburq və Sorbonna universitetlərində təhsil almışdır. "Azərbaycan" qəzetinin redaktorlarından olmuşdur. Qəzetdəki yazılarını "C. Dağıstani" imzası ilə nəşr etdirmişdir. Üzeyir Hacıbəylinin kiçik qardaşıdır. 330
Hacıbəyli, Üzeyir (1885-1948): Azərbaycan bəstəkarı, musiqişünas, publisist, pedaqoq və ictimai xadim. Azərbaycanın müasir peşəkar musiqi sənətinin və milli operanın banisi. Dövrünün bir sıra qəzet və jurnallarında, o cümlədən "Azərbaycan" qəzetində məqalə, felyeton, hekayə və miniatürlərlə çıxış etmişdir. "Azərbaycan" qəzetinin redaktorlarından biri olmuşdur. Sovet dövründə Azərbaycan Bəstəkarlar İttifaqının sədri, Azərbaycan Dövlət Konservatoriyasının rektoru, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü olmuşdur. Azərbaycan SSR-in və Azərbaycan Respublikasının Dövlət himnlərinin musiqisinin müəllifidir. 4, 26, 51, 80, 87, 110, 140, 145, 169, 198, 226, 233, 255, 283, 342, 369, 397, 425, 453, 459, 481, 508, 535, 563, 591, 619, 645
Hacıbəyli, Zülfüqar (1884-1950): Azərbaycan bəstəkarı. Üzeyir Hacıbəylinin böyük qardaşıdır. 113, 197, 230, 285, 367, 395, 425
Hacıhəsənli (xanım): Bakı Universitetinin Tibb fakültəsinin tələbəsi olmuşdur. 637
Hacıhəsənski (xanım): bax. Hacıhəsənli (xanım).
Hacıqasımov, Mustafa bəy Mahmud ağa oğlu (1883-1969): Qazaxın Poylu kəndində anadan olmuşdur. Xarkov Universitetinin Tibb fakültəsini bitirmişdir. Almaniyada təcrübə keçmişdir. Azərbaycanda ginekoloq kimi uzun müddət fəaliyyət göstərmişdir. 282, 341, 397, 452, 508, 561, 618
Hacıqədir Məhərrəm oğlu. 614
Hacınski, Camo bəy (1888-1942): Azərbaycan Cümhuriyyətinin siyasi xadimi. Azərbaycan Milli Şurasının və Parlamentin üzvü olmuş, Poçt və Teleqraf naziri vəzifəsini tutmuşdur. Bakı və Ətrafının Zəhmətkeş Ziyalılar İttifaqının üzvü olmuşdur. 1938-ci ildə sürgün edilmiş, həbs düşərgəsində ölmüşdür. 55, 595
Hacınski, Əhməd: Azərbaycan Ordusunun zabiti. 445
Hacınski, Mehdi bəy Süleyman bəy oğlu (yaxud Hacızadə; 1879-1941): Azərbaycanın ictimai-siyasi xadimi. Bakı Şəhər Dumasının,

"Nicat" və "Səfa" cəmiyyətlərinin üzvü, Daxili İşlər nazirinin müavini, Azərbaycan Parlamentinin üzvü idi. Parlamentin katibi vəzifəsini tutmuşdur. 88, 117, 176, 177, 202, 203, 350, 441

Hacınski, Məhəmmədhəsən (1875-1931): Azərbaycanın dövlət xadimi. Peterburq Texnologiya İnstitutunu bitirmişdir. Cümhuriyyətdən əvvəl Bakının abadlaşdırılmasında xidmətləri olmuşdur. Zaqafqaziya Seyminin üzvü idi. Zaqafqaziya Demokratik Federativ Respublikasında Ticarət və Sənaye naziri vəzifəsini tutmuşdur. Azərbaycan Milli Şurasının üzvü idi. Azərbaycan Cümhuriyyəti Hökumətində Xarici İşlər naziri, Dövlət Nəzarəti naziri, Maliyyə naziri, Daxili İşlər naziri, Ticarət, Sənaye və Ərzaq naziri kimi vəzifələrdə işləmişdir. Azəbaycan Cümhuriyyətinin Paris Sülh Konfransına göndərdiyi nümayəndə heyətinin tərkibində yer almışdır. Cümhuriyyətin süqutundan sonra repressiyaya məruz qalmışdır. 218, 330, 362, 444, 494, 505, 583, 584, 585, 624

Hacınski, S. B.: Bakı Ev Sahibləri İttifaqı idarəsinin xəzinədarı olmuşdur. 45

Hacıyev: Bakı Universitetinin Tibb fakültəsinin tələbəsi olmuşdur. 637

Hacıyev, Ağahüseyn: Bakı sakini. 279

Hacıyev, Ə. Q.: Bakı Ev Sahibləri İttifaqı idarəsi sədrinin müavini olmuşdur. 45

Hacıyev, Mehdi: Bakı sakini. 338

Hacıyev, Veysulla: Azərbaycan Ordusunun əsgəri. 445

Hacıyev, Yusif bəy: Salyan şəhərinin pristavı. 107

Hacızadə, Camal: "Müsavat"ın Künövşə (Siyəzən) kənd şöbəsinin xəzinədarı. 338

Hacızadə, Əlillah: "Müsavat" partiyasının Əhmədli kənd şöbəsinin idarə üzvü olmuşdur. 48

Hacızadə, Hüseynağa: "Müsavat" partiyasının Əhmədli kənd şöbəsinin xəzinədarı (kassiri) olmuşdur. 48

Hacızadə, İbrahim: "Müsavat"ın Xıllı şöbəsinin üzvü. 529

Hacızadə, Salam: "Müsavat"ın Künövşə (Siyəzən) kənd şöbəsi idarə heyətinin katibi. 338

Hadi, Məhəmməd (Əbdülsəlimzadə; 1879-1920): Azərbaycanlı şair və publisist. 454

Hadizadə, Əbdürrəhim (Axund Əbdürrəhim): Bakı sakini. 455

Hafiz Əlibala oğlu: Bakıda, 8-ci polis sahəsində polis olmuşdur. 46

Haqnəzər Əliəsgər oğlu (Hacı Haqnəzər): Quba qəzasının Ərəb Həmyə kəndinin sakini. 639

Hamburq, S. M.: Bakıda fəaliyyət göstərmiş diş həkimi olmuşdur. 25, 80, 168, 225, 283, 312, 341, 367, 396, 425, 451, 508, 563, 619

Harbord, Ceyms [James Harbord; 1866-1947]: Amerikanın hərbi xadimi; general-leytenant. Birinci Dünya müharibəsindən sonra vəziyyəti yerində öyrənmək məqsədi ilə Yaxın Şərqə, Anadoluya və Qafqaza göndərilən Amerika missiyasının rəhbəri olmuşdur. 15, 38, 99, 177

Haskell, Vilyam Nefyu [William Nafew Haskell; 1878-1952]: Amerikanın hərbi və ictimai xadimi; general-leytenant. Amerika Yardım Administrasiyasının [American Relief Administration] heyətində Rusiyada xidmət etmiş, 1921-1923-cü illərdə bu qurumun Rusiya direktoru olmuşdur. 286, 435, 437, 489, 490, 496, 644

Haşım Abbas oğlu: Bakıdakı Qars qaçqınlarından. 220

Haşımov, Firidun (Hacı Firidun). 30

Haşımov, Mirtacəddin (Hacı Mirtacəddin): Göyçay mahalı nümayəndəsi. 361

Hauz, Edvard [Edward House, 1858-1938]: Amerika siyasi xadimi və diplomatı. Hərbçi olmasa da, "polkovnik Hauz" kimi tanınmışdır. Amerika prezidenti Vilson, Hauzun təsiri altında qalmışdır. 123, 600





Hekayənəvis: "Azərbaycan" qəzetində imza. 155

Hayze: Alman siyasətçisi. 263

Hemens, Hans-Krieqel. 150

Henderson, Artur [Arthur Henderson; 1863-1935]: Britaniyalı siyasətçi; Leyboristlər Partiyasının lideri olmuşdur. 183

Hersoginya Vedkord. 183

Hersoq Aostski: bax. Filibert, Emmanuil.

Hess: Almaniya Milli Şurasının üzvü. 92

Heydərov: Osetin; Osetiyada hökumət əleyhində qiyamın başçılarından olmuşdur. 421

Heydərov, İbrahim bəy (1879-1949): Azərbaycanın və Dağıstanın ictimai-siyasi xadimi. Sankt-Peterburq Rabitə İnstitutunu qurtarmışdır. Rusiya Dövlət Dumasının üzvü olmuşdur. Bakı Bələdiyyə İdarəsi Təsərrüfat şöbəsinin rəisi olmuşdur. Bakıda neft şirkətlərinin və bəzi maarif-xeyriyyə cəmiyyətlərinin idarə heyətində təmsil olunmuşdur. 1918-1919-cu illərdə Dağlılar Respublikasının birinci hökumətində Daxili İşlər naziri, ikinci hökumətində isə Rabitə, Poçt və Teleqraf naziri vəzifəsini tutmuşdur. 1920-ci ildən etibarən mühacirətdə yaşamış, Türkiyədə vəfat etmişdir. 235, 379, 397

Heyne, Henrix: Alman şairi. 169

Həbibzadə, Hüseynulla: "Müsavat" partiyasının Əhmədli kənd şöbəsinin sədri olmuşdur. 48

Həmid (Kərbəlayı Həmid): Bakı sakini. 362

Hənəfi Məcid oğlu. 614

Hənifə: Bakı sakini; Tağıyev fabrikinin fəhləsi Ağabala Məhəmmədovun oğlu. 194

Həsən Ağabala oğlu: Bakı sakini. 503

Həsən bəy: casusluq ittihamı ilə İranın şimalında ingilislər tərəfindən həbs edilmiş İran vətəndaşı. 128

Həsən Əbdül oğlu: Qarakilsə (Sisyan) qaçqınlarından olan uşaq. 364

Həsən Əliməhəmməd oğlu: Dağıstanda Belici qəsəbəsi sakini. 215

Həsən Fərzəli oğlu: neft mədənində fəhlə olmuşdur. 640

Həsən Sadıq oğlu (Hacı Şeyx Həsən Axund Molla Sadıqzadə): Şeyxülislamlıq İdarəsinin üzvü olmuşdur. 346, 374

Həsən Ziya: şagird. 530

Həsən Zülfüqar oğlu. 614

Həsənəli Dünyamalı oğlu: "Müsavat"ın Ağ şəhər şöbəsinin üzvü. 558

Həsənov: Bakıda 2-ci polis dairəsi pristavının müavini olmuşdur. 638

Həsənov: Azərbaycan Ordusunun zabiti. 445

Həsənov, Ağaqulu: Bakı sakini. 221

Həsənov, Əli Ağa: bax. Həsənov, Əliağa.

Həsənov, Əliağa (1871-1933): Azərbaycanın ictimai-siyasi xadimi; Cümhuriyyət dövründə Maliyyə naziri, Dövlət Müfəttişi, Azərbaycan Parlamentinin üzvü olmuşdur. "Nəşri-maarif" cəmiyyətinin yaradılmasında və fəaliyyətində yaxından iştirak etmiş, Bakı Şəhər Dumasının üzvü olduğu dövrdə Şollar su kəmərinin çəkilişi və şəhərdəki digər quruculuq-abadlıq işlərində xüsusilə böyük xidməti olmuşdur. 143, 258, 372, 486, 565, 593, 621, 625

Həsənov, Əliəkbər: Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin hesabdarı olmuşdur. 137

Həsənzadə, Əbdüləli (Mirzə Əbdüləli): İran maarif cəmiyyəti "Tərəqqi"nin katibi. 529

Həsənzadə, Əliağa: bax. Həsənov, Əliağa.

Həsənzadə, Hüseyn (Mirzə Hüseyn Həsənzadə): Tiflisdə Müsəlman Milli Şurasının üzvü olmuşdur. 478

Həsənzadə, İsmayıl (Məşhədi İsmayıl): Qazax sakini. 644

Hindenburq, Paul fon (Paul von Hindenburg, 1847-1934): Almaniyanın hərbi və siyasi xadimi, Birinci Dünya müharibəsinin ən məşhur sərkərdələrindən biri. 1925-1934-cü illərdə Almaniya prezidenti olmuşdur. 379, 629

Hippo, Edmon Qabriel [Edmond Gabriel Hippeau; 1849-1921]: Fransız tarixçisi və diplomatı; Qafqaz respublikaları haqqında əsərlərin müəllifi. 463, 482
Hişam: Bakı Dövlət Universitetində dərs demişdir. 446
Hoffman: Prussiya Məclisinin üzvü. 122
Hoppe, Lüdviq fon [Ludwiq von Hoppe]: Alman admiralı. 379
Huver, Herbert [Herbert Hoover; 1874-1964]: Amerikanın ictimai-siyasi xadimi. 1918-1923-cü illərdə Avropa ölkələrinə qida köməyi göstərən Amerika Yardım Administrasiyasının [American Relief Administration] rəhbəri olmuşdur. 1929-1933-cü illərdə 31-ci ABŞ prezidenti olmuşdur. 322
Hümmət Rəsul oğlu: Bakıda polis olmuşdur; Bayılovda ikinci sahədə xidmət etmişdir. 22
Hüseyn: casusluq ittihamı ilə İranın şimalında ingilislər tərəfindən həbs edilmiş İran vətəndaşı. 128
Hüseyn: İmam, Məhəmməd Peyğəmbərin nəvəsi, həzrəti-Əlinin oğlu. 226, 256, 370
Hüseyn (Məşhədi Hüseyn): Ərəbqardaşbəyli kəndinin (Neftçala) sakini. 217
Hüseyn (Molla Hüseyn): Qars qaçqınlarından. 166
Hüseyn Fərəc oğlu: Qara şəhərdə fəhlə olmuşdur. 420
Hüseyn Həsən oğlu: Könüllü Təşkilatının üzvü. 193
Hüseyn ibn Əli əl-Haşimi (1854-1931): Məkkə şərifi, Hicaz kralı. 575
Hüseyn Qasım: "Azərbaycan" qəzetinə Salyandan yazmışdır. 306
Hüseyn Rauf: bax. Orbay, Hüseyn Rauf.
Hüseynbəyzadə, Yusif bəy: "Müsavat"ın Lənkəran şöbəsinin sədri; Lənkəran Türk ali-ibtidai məktəbinin müəllimi. 531
Hüseynxan Məhəmmədsadıq oğlu: Bakıdakı qaçqınlardan. 73
Hüseynqulu xan (1774-1845): Bakı xanı; 1792-1806-cı illərdə hakimiyyətdə olmuşdur. 634
Hüseynqulu Xəlfəqulu oğlu (Məşhədi Hüseynqulu): Quba qəzasının Ərəb Həmyə kəndinin sakini. 639
Hüseynov, Allahyar (Hacı Allahyar): Qaradonlu camaat vəkili. 219
Hüseynov, Əmir: Bakı sakini. 504
Hüseynov, Hacısaleh. 567
Hüseynov, Hilal. 30
Hüseynov, Xəlil: bax. Hüseynzadə, Xəlil.
Hüseynov, Mirzədavud (1894-1938): Sosial Təminat Nazirliyində işləmiş, "Hümmət" partiyasının sədri olmuşdur. Cümhuriyyətin süqutundan sonra Bakıda və Moskvada bir sıra rəhbər vəzifələrdə işləmiş, eləcə də Tacikistan Kommunist Partiyası Mərkəzi Komitəsinin I katbi (1930-1933) olmuşdur. Repressiyaya məruz qalaraq güllələnmişdir. 29
Hüseynov, Rəhim: Əmək Nazirliyində işləmişdir; İxtilaf Komissiyasının sədri olmuşdur. 602
Hüseynov, Saleh: Şuşa Milli Müdafiə Cəmiyyətinin müsahibi olmuşdur. 30
Hüseynzadə, Ələkbər (1887-1967): teatr və kino aktyoru. Azərbaycan SSR Əməkdar artisti idi. 196
Hüseynzadə, Əman: "Müsavat"ın Qara şəhər şöbəsinin sədri. 420, 558
Hüseynzadə, Hilal: Azərbaycan Şeyxülislamlıq İdarəsində katib olmuşdur. 346
Hüseynzadə, Xəlil Hacı Mahmud oğlu (1890-1943): Azərbaycan aktyoru və rejissoru. 196
Hüseynzadə, İsgəndər: Bakı mədənlərində fəhlə olmuşdur; fəhlə hərəkatının aktiv iştirakçısı, "Müsavat" üzvü olmuşdur. 640
Hüseynzadə, İsmayıl. 588
Hüseynzadə, Məzahir: "Müsavat" partiyasının Zabrat şöbəsinin sədri olmuşdur. 393
Hüzeynzadə, Mirzədavud: bax. Hüseynov, Mirzədavud.





Hüseynzadə, Nazim bəy: Bakıda fəaliyyət göstərmiş həkim. 25, 50, 79, 108, 140, 168, 197, 225, 480, 506, 561, 618
Hüseynzadə, Rəhim: Əmək Nazirliyində işləmişdir. 45
Hüseynzadə, Teymur: Azərbaycan Mülkiyyə Müfəttişliyinin Baş katibi. 485
X. C.: "Azərbaycan" qəzetinə Lənkərandan yazmışdır. 75
Xaçaturyan, Sumbat Arutyunoviç (yaxud Xaçaturyans): 1914-cü ilə qədər Bakıda yaşamış, 1915-1917-ci illərdə İrəvan şəhər bələdiyyəsinin sədri olmuşdur. Ermənistan Parlamentinin üzvü, həmçinin erməni-gürcü müzakirələrində və 1920-ci ilin aprelində Tiflisdə baş tutan Zaqafqaziya konfransında erməni nümayəndə heyətinin üzvü idi. 165, 583
Xadzaraqov, Xasan: osetin; Dağlılar Respublikasının Paris Sülh Konfransına göndərdiyi nümayəndə heyətinin üzvü. 379
Xanabadski, Nağı. 587
Xanbutayev, Hacıbaba: Bakı sakini. 220
Xanoğlan Atamoğlan oğlu: Bakı sakini. 48
Xarlamov, Vasili Akimoviç (1875-1957): Rusiyanın siyasi xadimi. Kadet partiyasının üzvü idi. Ağqvardiyaçılar hərəkatının aktiv üzvlərindən biri, Cənub-Şərq İttifaqı Hökumətinin başçısı olmuşdur. 1920-ci ildən etibarən mühacirətdə yaşamışdır. 186
Xasməmmədov, Xəlil bəy (yaxud Xasməhəmmədov; 1873-1947): Azərbaycanın dövlət xadimi. Moskva Universitetinin Hüquq fakültəsini bitirmişdir. Rusiya Dövlət Dumasının, Azərbaycan Milli Şurasının üzvü olmuşdur. Azərbaycan Cümhuriyyəti Hökumətində portfelsiz nazir, Ədliyyə naziri, Daxili İşlər naziri kimi vəzifələr tutmuşdur. Azərbaycanın Türkiyədə səfiri təyin edilmiş, Cümhuriyyətin süqutundan sonra Azərbaycana qayıtmamışdır. Siyasi fəaliyyətini mühacirətdə də davam etdirmişdir. 362
Xatisov, Aleksandr İvanoviç (1874-1945): Erməni ictimai-siyasi xadim, "Daşnaksutyun" partiyasının üzvü idi. Müxtəlif dövrlərdə Ermənistanın Baş naziri, Səhiyyə, Daxili İşlər və Xarici İşlər naziri olmuşdur. Ermənistanın sovetləşməsindən sonra Fransa və Portuqaliyada mühacirətdə yaşamışdır. 165, 166, 318, 436, 451, 475, 494, 497, 546, 582, 583, 584, 585, 592, 624, 644
Xatisyan: bax. Xatisov, Aleksandr İvanoviç.
Xələf Məhəmmədkərim oğlu: "Müsavat"ın Hacıqabul şöbəsinin üzvü. 529
Xəlil: Hacıqabul stansiyasında fəhlə olmuşdur. 336
Xəlil İbrahim: bax. İbrahimov, Xəlil.
Xəlil Muxtar oğlu: Milmanlı kəndinin (Cavad qəzası) sakini. 161
Xəlil Zəki (Müftüzadə): İzmirdə nəşr edilmiş "Şərq" qəzetinin müdiri idi. 187
Xəlilov, Mikayıl Maqomedoviç (1869-1935): Rusiyanın hərbi xadimi; general-mayor. Lak əsillidir. 1918-ci ilin axırlarından Könüllü orduya qoşulmuşdur. 1918-1920-ci illərdə Dağıstanın hərbi komendantı olmuşdur. Kotsevdən sonra Dağıstan Hökumətinə rəhbərlik etmişdir. Daha sonra Türkiyəyə mühacirətə getmişdir. 214
Xəttatov, Seyidcəlil Üsein oğlu (1873 - ?): Krım tatarlarının ictimai-siyasi xadimi, pedaqoq. Krım Xalq Respublikasının Maliyyə naziri olmuşdur. 1928-ci ildə Sovet rejimi tərəfindən həbs edilmişdir. 1936-cı ildə həbsdən azad edilmiş, 1937-ci ildə yenə həbs edilmişdir. Sonrakı taleyi məlum deyil. 358
Xodunov, A. K.: falçı. 167
Xoxlov, Nikandr: Bakı sakini. 586
Xorti, Mikloş [Miklos Horty; 1868-1957]: vitse-admiral; 1918-ci ildə Avstriya-Macarıstan donanmasının Baş komandanı; 1920-1944-cü illərdə Macarıstan krallığının regenti olmuşdur. 320
Xoyski, Əmir xan (1888-1954): Azərbaycanın ictimai-siyasi xadimi, milli istiqlal hərəkatının iştirakçısı. Bakı quberna-

torunun müavini, eləcə də bir sıra yerlərdə qəza rəisi, Qazax mahalının general-qubernatoru olmuşdur. 193, 278, 550, 551
Xoyski, Fətəli xan (1875-1920): Azərbaycan Cümhuriyyətinin qurucularından biri, görkəmli dövlət xadimi. Moskva Universitetinin Hüquq fakültəsini bitirmişdir. Bakı Şəhər Dumasının sədri (1917-1918), Zaqafqaziya Seyminin üzvü və Zaqafqaziya Federativ Respublikasının Xalq Maarifi naziri (1918) olmuşdur. Azərbaycan Cümhuriyyətinin ilk hökumətinin sədri seçilmiş, Cümhuriyyət dövründə bir neçə dəfə Baş nazir, eləcə də Daxili İşlər naziri, Ədliyyə naziri, Xarici İşlər naziri vəzifələrini icra etmişdir. Bolşevik işğalından sonra Tiflisə mühacirət etmiş və orada erməni daşnakları tərəfindən şəhid edilmişdir. 362
Xudaverdi Həmzə oğlu: Bakıda Tağıyevin fabrikində fəhlə olmuşdur. 246
Xuramoviç, Sara xanım: bax. Talışinskaya-Xuramoviç, Sara xanım.
Xuramoviç, Səlimə xanım. 157
Xurşid paşa: 1919-cu ildə hökumət tərəfindən Ankaraya göndərilən tədqiq heyətinin rəhbəri olmuşdur. 515, 576
Xusar, Karoy [Károly Huszár de Sárvár; 1882-1945]: Macarıstanın siyasi xadimi. 1919-cu ilin noyabrından 1920-ci ilin martına qədər Baş nazir olmuşdur. 493
İbrahim Əliəkbər oğlu: Bakıdakı Zəngəzur qaçqınlarından. 505
İbrahim xan (yaxud İbrahim Xəlil xan; 1732-1806): Qarabağ xanı. 633
İbrahimli, Sabit: "Müsavat" partiyasının Ağşəhər şöbəsinin katibi olmuşdur. 558
İbrahim Sadıq oğlu: gəmidə fəhlə olmuşdur. 162
İbrahimli, Yusif (Məşhədi Yusif): Azərbaycan Dəmiryolu İdarəsində işləmişdir; "Müsavat" üzvü olmuşdur. 47, 303, 337, 394, 640
İbrahimov, Xəlil (Xəlil İbrahim; Xəlil İbrahimzadə; 1892-1938): Azərbaycanlı müəllim, publisist və tənqidçi. Şuşada anadan olmuşdur. Bakıda müəllim işləmiş, müxtəlif qəzet və jurnallarda, o cümlədən "Azərbaycan" qəzetində yazılar dərc etdirmiş, bir müddət "Azərbaycan" qəzetinin "müvəqqəti müdiri" olmuşdur. 1938-ci ildə həbs edilərək güllələnmişdir. 153, 190, 213, 277, 417, 521
İbrahimzadə, Ağaməhəmməd: "Müsavat"ın Şura üzvü; Bakı şəhər Dumasının və Cəmiyyəti-Xeyriyyənin (Bakı) üzvü və kargüzarı. 29, 395
İlyuşkin, Pyotr Fyodoroviç: Bakı Şəhər İdarəsinin və Bakı Şəhər Dumasının üzvü olmuşdur. 1917-ci ildə Bakı Şəhər İdarəsinin rəisi və Bakı qubernatoru vəzifələrini müvəqqəti olaraq icra etmişdir. Cümhuriyyət dövründə Bakı Şəhər İdarəsinin rəisi olmuş, sovet dövründə isə Bakı Şəhər Sovetində müxtəlif vəzifələrdə işləmişdir. 428, 456, 593
İmaməli Eyvaz oğlu: Sayad Xızı kəndinin sakini. 246
İmamqulu Hacı oğlu (Kərbəlayı İmamqulu): Tovuzun Qoşa kəndinin sakini. 134
İnayev: artist. 583
İrdoğanlı, K. S.. 479
İretski, Konstantin Aleksandroviç (1842-1918): Rusiyanın Tver quberniyası dvoryanlarından olan İretski daha sonra Bakıya köçmüş, burada yaşamış və işləmişdir. Müxtəlif xeyriyyə cəmiyyətlərinin, maarif və maliyyə qurumlarının işində yaxından iştirak etmişdir. 1885-ci ildə Bakı Neft Sənayeçiləri Qurultayı Şurasının sədri seçilmişdir. 1887-1917-ci illərdə Bakı Şəhər Dumasının üzvü, 1894-1898-ci illərdə Bakı Bələdiyyəsinin sədri olmuşdur. 592
İrəvani, Paşa: Bakı sakini. 221
İrvin. 573
İsa (peyğəmbər). 361
İsayev, Cavanşir: Hacıqabul mahalının fəallarından; "Müsavat"ın Hacıqabul şöbəsinin katibi. 363, 391
İsayeviç, Dmitri Qriqoryeviç (1889-1973): Ukraynanın ixtimai-siyasi xadimi. Paris Sülh Konfransında Ukrayna heyətinin məsləhətçisi olmuşdur. 235
İsazadə, Cavanşir: bax. İsayev, Cavanşir.
İsgəndər: Dağıstanın Qasımkənd kəndindən olan tacir. 215
İshaq Axçura oğlu: "Müsavat" partiyasının Binəqədi mədən dairəsi şöbəsinin sədri olmuşdur. 640
İskəndər Osman oğlu. 614
İsmayıl Fazil paşa: bax. Cəbəsoy, İsmayıl Fazil.
İsmayıl Həsən qızı: Bakıdakı qaçqınlardan. 365, 370
İsmayıl İlyas oğlu: Quba qəzasında kənd camaatının vəkili olmuşdur. 245
İsmayılxan Mirzəxan oğlu: Bakıda quldurluq etmişdir. 638
İsmayılov, Əbdülbaqi: Ticarət və Sənaye Nazirliyində işləmişdir; Nazirliyin xüsusi əmrlər məmuru və baş müfəttişi olmuşdur. 29, 83
İsmayılov, Məhəmmədtağı. 504
İsmayılov, Teymur: Bakı sakini. 304
İsmayılzadə, Əbdülbaqi: bax. İsmayılov, Əbdülbaqi.
İsmayılzadə, Minəxanım: Əbdülbaqi İsmayılzadənin qızı. 83
İsmayılzadə, Yəminə xanım: Əbdülbaqi İsmayılzadənin həyat yoldaşı. 29
İsmixanov, Haşım bəy: "Müsavat"ın Astara şöbəsinin sədri. 531
İvanov, A. A.: teatr rejissoru. 49, 113, 143, 565, 594
İzzət İsmayıl qızı: Keşlə kənd sakini. 337
Jan-de-Kolon: pəhləvan. 83, 229, 257, 315, 566
Jarkovski, Aleksandr Borisoviç: Azərbaycan Maliyyə Nazirliyi İstiqraz (Kredit) şöbəsinin kargüzarı olmuşdur. 621
Jujunov: Bakı Universitetinin Tibb fakültəsinin tələbəsi olmuşdur. 637
Juq: Kuban Radasının üzvü. 623
Juv, Pyer Jan [Pierre Jean Jouve; 1887-1976]: fransız şair və yazıçısı. 41
Kalacov: Zaqatala nümayəndəsi; Ticarət Nazirliyinin vəkili. 361
Kalişeviç, Aleksandr: pəhləvan. 1, 49, 53, 83, 171, 257, 285, 345, 371, 399, 509, 537, 566, 621
Kalunovski: Litva nümayəndəsi. 235
Kalyukov: Kuban Radasının üzvü. 623
Kamal, Ələsgər: tatar dramaturqu. 193, 252
Kamal Sübhanqulu: bax. Sübhanqulov, Kamal.
Kamal Ziyaəddin oğlu (Məşhədi Kamal Hacı Ziyaəddin oğlu): Şamaxı şəhəri sakini. 448
Kambon, Jül [Julies Cambon; 1845-1935]: Fransanın diplomatı və siyasi xadimi. Paris Sülh Konfransında bir sıra komissiyaların sədri olmuşdur. 237
Kandelaki, Konstantin Platonoviç (yaxud Kateva Kandelaki; 1883-1958): Gürcüstanın siyasi xadimi; Maliyyə və Ticarət naziri olmuşdur. Mühacirətə getmişdir. 582, 583
Kanepa, Cüzeppe [Giuseppe Canepa; 1865-1948]: İtaliyanın siyasi xadimi. İtaliya Fəhlə Partiyasının təsisçiləri arasında olmuş, müharibədən sonra İtaliya Sosialist Fəhlə Partiyasından Parlamentə seçilmişdir. 263
Kant, İmmanuel [Immanuel Kant; 1724-1804]: Alman filosofu. 347
Kapustin, Vladimir: Petropavlovkada (Sabirabad) baş feldşer olmuşdur. 219
Kara-Murza. 301
Karbatyev: Göyçayda feldşer olmuşdur. 104
Karpet, Bibi: kino aktyoru. 537
Karseladze: Tiflis sakini. 164
Kartsivadze, Nikolay İotamoviç (1884-1937): Gürcüstanın ictimai xadimi və diplomatı. Ali hüquq təhsili almışdır. Menşeviklərin Gürcüstandakı rəhbərlərindən biri idi. Gürcüstanın Azərbaycan Cümhuriyyətindəki siyasi nümayəndəsi, Gürcüstan Xarici İşlər nazirinin müavini olmuşdur. 1937-ci ildə Sovet rejimi

tərəfindən həbs edilərək güllələnmişdir. 249, 494, 495, 582, 644

Kavurzadə, Hüseyn Cəlal bəy (1868-1924): Osmanlı dövlət xadimi. Bir çox vilayətdə, o cümlədən 1919-1920-ci illərdə Ədirnədə vali (general-qubernator) olmuşdur. 39, 52

Kazımoğlu: bax. Seyid Hüseyn Sadiq.

Kazımov: Bakı Universitetinin Tibb fakültəsinin tələbəsi olmuşdur. 637

Kazımov, Ağa: Bakı sakini. 555

Kazımov, Cəfər: Əmək Nazirliyində işləmişdir; Əmək nazirinin xüsusi katibi olmuşdur. 567

Kazımov, Əli: Bakı sakini. 555

Kazımov, Nəsir: Bakı sakini. 221

Kazımov, Rüstəm (1879-1943): Azərbaycan aktyoru. 167

Kazımzadə, Məhəmmədəli: “Müsavat” partiyasının Əhmədli kənd şöbəsinin idarə üzvü olmuşdur. 48

Kazımzadə, Nadir: “Müsavat” partiyasının Balaxanı şöbəsinin üzvü olmuşdur. 558

Kerenski, Aleksandr Fyodoroviç (1881-1970): Rusiya Müvəqqəti Hökumətinin (iyul-noyabr 1917) başçısı. 1918-ci ildə mühacirətə getmişdir. 164, 258, 259, 260

Kerzon, Corc Nataniel [George Nathaniel Curzon; 1859-1925]: İngiltərənin dövlət xadimi. 1916-1925-ci illərdə Lordlar Palatasının başçısı, 1919-1924-cü illərdə Xarici İşlər naziri olmuşdur. 266, 375, 376, 400, 403, 466, 574

Kərbəlayı Dadaş. 645

Kərbəlayı Salman: Maştağa sakini, “Müsavat” üzvü. 558

Kərim Səfdər oğlu (Kərbəlayı Səfdər oğlu): Lahıc sakini. 280

Kərimli Dadaş: “Müsavat”ın Qalabazarı (Masallı) şöbəsinin sədri. 281

Kərimov: Bakı Bələdiyyə İdarəsinin üzvü. 386

Kərimov, Abbasəli: bax. Kərimzadə, Abbasəli.

Kərimov, Əbdülxalıq: Bakı sakini. 481

Kərimov, Qərib Kərim oğlu: bax. Qərib Məhəmmədkərim oğlu.

Kərimov, Muxtar: Bakı sakini. 221

Kərimov, Nəsrəddin: Göyçay mahalı nümayəndəsi. 361

Kərimzadə, Abbasəli: Müsəlman Xeyriyyə Cəmiyyətinin üzvü olmuşdur. 449

Kərimzadə, Muxtar: yoxsul müsəlmanların dəfninə kömək edən Müsəlman Təcziyə Bürosunun qurucusu. 588

Kəsrioğlu, Saleh Sidqi: Türkiyənin ictimai-siyasi xadimi; Sivas Konqresinin iştirakçısı. 291

Kiçikxanov, Bayram Niyazi oğlu (yaxud Kiçikxanlı; 1889-1922): Azərbaycanın siyasi xadimi. Zaqatalada maarif müfəttişi işləmişdir. Zaqataladan Azərbaycan Cümhuriyyəti Parlamentinə seçilmiş, eyni zamanda Parlamentin katibi olmuşdur. “Əhrar” partiyasının üzvü idi. 174, 389, 391

Kilazarov: prokuror. 616

Kişmişev: Ermənistan hərbi nümayəndəsi; general. 583

Klemanso, Jorj [Georges Clemenceau; 1841-1929]: Fransanın dövlət xadimi. 1906-1909 və 1917-1920-ci illərdə Baş nazir olmuşdur. 13, 39, 40, 62, 123, 148, 181, 205, 206, 320, 321, 466, 542, 573, 591, 598

Klerk, Corc [George Clerk; 1874-1951]: Britaniyalı diplomat; Çexoslovakiya, Türkiyə, Belçika və Fransada səfir olmuşdur. 185

Kleşal: Fransanın Berlində siyasi nümayəndəsi. 120

Knyazov: Azərbaycanda nazirlikdə işləmişdir. 434

Koknidze: pəhləvan. 427

Kolçak, Aleksandr Vasilyeviç (1874-1920): Rusiyanın hərbi və siyasi xadimi; admiral. Ağqvardiyaçılar hərəkatının başçısı, Rusiyanın Ali rəhbəri (noyabr 1918 – fevral 1920) və Rus ordusunun Ali Baş komandanı (noyabr 1918 – yanvar 1920) olmuşdur. 5, 11, 12, 17, 38, 97, 120, 121, 146, 180, 207,





263, 264, 319, 357, 376, 379, 408, 428, 430, 460, 493, 511, 517, 540, 541, 543, 569, 572, 629

Kolesnikov, İvan Nikiforoviç (1860-1920): Rusiyanın hərbi xadimi; general-mayor. Birinci Dünya müharibəsində iştirak etmiş, 1918-ci ildə Könüllü orduya daxil olmuş, Terek kazaklarının komandiri təyin edilmişdir. 129

Koliss, Kuk: İngilis generalı; Batuminin general-qubernatoru olmuşdur. 164

Kon, Kotlo Kondrateviç: Bakı sakini. 638

Kon, Oskar: Prussiya Məclisinin üzvü. 122

Kopelioviç, Samuil İzrailoviç: Bakıda fəaliyyət göstərmiş həkim. 24, 50, 79, 108, 139, 168, 196, 224, 254, 282, 311, 368, 396, 453, 645

Kornilov, Lavr Georgiyeviç (1870-1918): Rusiyanın hərbi xadimi; general. 1917-ci ilin iyul-avqust aylarında rus ordusunun Ali baş komandanı olmuşdur. 319

Kostvin, Həsən: pəhləvan. 144

Kouts, Vilyam Peyton [William Peyton Coutes; 1883-1963]: İrlandiyalı kommunist. 121

Köçərli, Badisəba xanım (Mustafa ağa qızı Vəkilova; 1881-1954): Azərbaycanın maarifçi və xeyriyyəçi qadını; Firidun bəy Köçərlinin həyat yoldaşı. 450

Köçərli, Firidun bəy (1863-1920): Azərbaycanın görkəmli maarif xadimi, ədəbiyyatşünası və yazıçısı. Qori Müəllimlər Seminariyasını bitirmişdir. 1918-ci ildə Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsini Qazaxa köçürərək müstəqil bir seminariyaya çevirmiş və bu seminariyanın direktoru olmuşdur. Azərbaycan Milli Şurasının üzvü kimi İstiqlal Bəyannaməsini imzalayanlar arasında yer alan Firidun bəy Köçərlinin Azərbaycan ədəbiyyatı tarixinə dair əsərləri xüsusilə dəyərlidir. Bolşeviklər tərəfindən güllələnmişdir. 550, 645

Kösəoğlu, Hüseyn Səlahəddin (1882-1949): Türkiyənin hərbi və siyasi xadimi. Osmanlı dövləti ordusunun 2-ci Qafqaz Korpusunun, 4-cü Korpusunun və 3-cü Korpusunun komandiri, Türkiyə Böyük Millət Məclisinin üzvü olmuşdur. 291

Kramarj, Karel [Karel Kramář; 1860-1937]: Çexiyanın siyasi xadimi. 1918-1919-cu illərdə Baş nazir olmuşdur. Paris Sülh Konfransında Çexiya heyətinə rəhbərlik etmişdir. 58

Krasnov: “Tula” gəmisində sükançı olmuşdur. 162

Krespi, Silvio [Silvio Crespi; 1868-1944]: İtalyan biznesmeni və siyasətçisi. Versal Sülh Müqaviləsini imzalayanlar arasında idi. 12

Kress, fon: bax. Kressenşteyn.

Kressenşteyn, Kress fon [Kreß von Kressenstein] (1870-1948): Almaniyanın hərbi xadimi, general. Birinci Dünya müharibəsində Osmanlı ordusunda xidmət etmiş, 1918-ci ildə Gürcüstana ezam edilmişdir. Müharibədən sonra Almaniya ordusunda xidmətini 1929-cu ilə qədər davam etdirmişdir. 382, 383

Krıjanovski, Mixail: Bakı sakini. 503

Krımçakski, Səlamət Mirzə: Krımın ictimai xadimlərindən olmuşdur. 98

Krımtayev, Süleyman Mirzə: Krım tatarı; Baxçasaray Dumasının sədri. 98

Kribski: vəkil. 434

Kriçinski, Aslan bəy: bax. Kriçinski, Leon Konstantinoviç

Kriçinski, Leon Konstantinoviç (Leon-Nayman Mirzə Kriçinski; Kriçinski Radvan; Aslan bəy Kriçinski; Arslan bəy Kriçinski; 1887-1939): Krım və Azərbaycanın ictimai xadimi, tarixçi. Polşa tatarlarından olan Kriçinski Vilnüsdə anadan olmuşdur. Sankt-Peterburq Universitetinin Hüquq fakültəsini bitirmişdir. Simferopol dairəsinin prokuroru olmuş, Krım Xalq Respublikası Hökumətində və Krım Regional Hökumətində müxtəlif vəzifələr tutmuşdur. 1919-cu ildə Azərbaycana gəlmiş, Azərbaycan Hökuməti İşlər İdarəsi Dəftərxanasının müdiri

olmuşdur. 1920-ci ildə Vilnüsə getmişdir. 1939-cu ildə Polşanı işğal edən almanlar tərəfindən həbs edilmiş və güllələnmişdir. 335

Krinski: Bakıdakı rus icmasının nümayəndəsi. 361

Krou, Ayra [Eyre Crowe; 1864-1925]: Britaniya diplomatı. Paris Sülh Konfransında iştirak etmişdir. 237

Kruçinin: rus publisisti. 345

Kulabuxov, Aleksey İvanoviç (1880-1919): Kuban hökumətinin, Kuban Radasının və Paris Sülh Konfransına göndərilən Kuban heyətinin üzvü. 379, 380, 599, 600, 624

Kumo: sirk müdiri. 1, 49, 53, 83

Kupriyanov, Katya. 619

Kurya: casusluq ittihamı ilə İranın şimalında ingilislər tərəfindən həbs edilmiş avstriyalı. 128

Kuznetsov: Dağıstanda və Qafqazda fəaliyyət göstərmiş bolşeviklərdən. 274

Qaavet: İngiltərə hərbçisi, kapitan; Batumdakı İngilis Komandanlığının Poçt-teleqraf şöbəsinin rəisi olmuşdur. 250

Qabba, Melçiade [Melchiade Qabba; 1874-1952]: İtaliyanın hərbi xadimi, general. Birinci Dünya müharibəsindən sonra Zaqafqaziyadakı İtaliya hərbi heyətinin rəhbəri olmuşdur. 69, 582, 583

Qacar, Ağa Məhəmməd şah (1742-1797): Qacarlar dövlətinin qurucusu və ilk hökmdarı. 1789-1797-ci illərdə hakimiyyətdə olmuşdur. 632, 633

Qafarzadə, Əbdülxaliq Cənnəti (1855-1931): Azərbaycan şairi. 243, 273, 301

Qaibzadə, Hüseyn əfəndi. 502

Qaibzadə, Səməd ağa (1865 - ?): Azərbaycan Mülkiyyə Müfəttişliyi Mərkəzi Dəftərxanası müdiri. 485

Qaliley, Qalileo [Galileo Galilei; 1564-1642]: italyan fiziki, astronomu və riyaziyyatçısı. 347

Qambaşidze: Gürcüstan diplomatı. 494

Qambaşidze: Gürcüstanın Amerikadakı siyasi nümayəndəsi. 582, 583

Qaplanov, Rəşid xan (1883-1937): Azərbaycanın və Dağıstanın siyasi xadimi. Kumık əsillidir. Sorbon Universitetinin (Paris) Hüquq fakültəsini bitirmişdir. İstanbulda müxtəlif təhsil qurumlarında, o cümlədən İstanbul Universitetində dərs demişdir. 1918-ci ilin dekabrından 1919-cu ilin martına qədər Dağlılar Respublikasının Daxili İşlər naziri olmuşdur. Dağıstan Denikin qoşunları tərəfindən işğal edildikdən sonra Azərbaycana gəlmiş, əvvəlcə Maarif və Dini Etiqad (aprel-dekabr 1919), sonra Maliyyə (dekabr 1919 – aprel 1920) naziri olmuşdur. 1937-ci ildə güllələnmişdir. 362

Qara Maska: pəhləvan. 49, 83, 113, 257, 315, 345, 399, 427, 456, 483, 509, 593, 621

Qaraağazadə, Əhməd Həmdi (1893-1928): Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur. 6, 33, 57, 173, 252, 261, 308, 318, 349, 376, 429, 491, 513, 541, 570, 597, 624

Qarabəyli, Qara bəy (1873-1953): Azərbaycanın ictimai-siyasi xadimi, eyni zamanda həkim və jurnalist; Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü. "Difai" partiyasının rəhbərlərindən, "İttihad" partiyasının sədri olmuşdur. "Həyat", "İrşad", "Kaspi" kimi bir sıra nəşrlərlə əməkdaşlıq etmişdir. 71

Qarabəyov, Qara bəy: bax. Qarabəyli, Qara bəy.

Qaralov: general. 497

Qaraşarov, Rza bəy (yaxud Qaraşarlı; 1891-?): Azərbaycanın siyasi xadimi. Bir sıra məktəblərdə, o cümlədə Gəncə Ruhani Mədrəsəsində müəllimlik etmişdir. Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur. Qazax qəzasına xüsusi müvəkkil təyin edilmişdir. Sovet dövründə repressiyaya məruz qalmışdır. 350, 377

Qarayev, Əliheydər (1896-1938): Azərbaycanın siyasi xadimi. Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur. Cümhuriyyətin süqutundan sonar Bakı Sovetinin sədri, Azərbaycan Sovet Sosialist Respublikasının Hərbi Dəniz İşləri xalq komissarı, Əmək xalq komissarı və Ədliyyə xalq komissarı olmuş, bir sıra digər vəzifələrdə işləmişdir. 1937-ci ildə həbs edilmiş, 1938-ci ildə güllələnmişdir. 7, 8, 27, 116, 117, 203, 350, 405

Qardaşov, Aslan bəy (1866-1920): Azərbaycan Cümhuriyyətinin dövlət xadimi. "Əhrar" partiyasının liderlərindən biri, Milli Şuranın və Parlamentin üzvü, Əkinçilik və Dövlət Əmlakı naziri olmuşdur. 203, 390, 391, 403, 404

Qardaşyan. 138

Qaryağdıoğlu, Cabbar (1861-1944): Azərbaycan xanəndəsi və bəstəkarı. 257, 366

Qasım xan Vəli (Sərdari-hümayun; 1850-1933): İranın hərbi xadimi. 127

Qasımbəyov, Xəlil bəy (? - 1919): İrəvan ziyalılarından; mühəndis. Tiflisdə öldürülmüşdür. 23, 164, 250, 296

Qasımoğlu, Hacı Əli: bax. Qasımov, Hacı Əli.

Qasımov, Ağaəli: Bakı Birinci edadi məktəbinin müəllimi. 74

Qasımov, Əbdüləhəd Əbülqasım oğlu (Hacı Əbülqasım oğlu): Bakı sakini. 197

Qasımov, Əhməd Əbülqasım oğlu (Hacı Əbülqasım oğlu): Bakı sakini. 197, 199

Qasımov, Əli Səbri (1892-1983): Azərbaycanlı yazıçı, tərcüməçi, müəllim. Naxçıvan müsəlmanlarının ictimai xadimi olmuşdur. 395, 552

Qasımov, Hacı: bax. Qasımzadə, Hacı.

Qasımov, Hacı Əli: Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü. 87, 349

Qasımov, Hacı Məhəmməd oğlu: Ev Sahibləri İttifaqının üzvü; Bakı Bələdiyyəsi Seçki Komitəsinin üzvü. 72

Qasımov, Hənifə: xanəndə. 257

Qasımov, İsrafil: Azərbaycan Ordusunun əsgəri. 445

Qasımov, Q. M.: Bakı Ev Sahibləri İttifaqı idarəsi sədrinin müavini olmuşdur. 45

Qasımov, Qasım: Ağdaşda Bələdiyyə rəisi və Qaçqınlara Yardım Komitəsinin sədri olmuşdur. 137, 166, 221, 249, 394, 510, 594

Qasımov, Mahmud Əbülqasım oğlu (Hacı Əbülqasım oğlu): Bakı sakini. 197

Qasımov, Məhəmmədhənifə: Azərbaycan xanəndəsi. 366

